XƏYYAM

Dram – 6 pərdə

Ə Ş X A S

X ə y y a m – məşhur filosof, şair
S e v d a – onun sevgilisi
X a c ə N i z a m – Nizamülmülk Əbülqasim – Xəyyamın həmdərsləri
S a b b a h – Həsən
R ə m z i –
X ə r a b a t i- X ə y y a mın hərami
V ə f a-} – Rəmzi ilə Xərabatinin könüldaşları
S ə f a
A l p A r s l a n – əsrin xaqanı
M ə l i k ş a h – xaqanın oğlu
Y u s i f – isyançı bir dəliqanlı
H a c i b – Xacə Nizamın qulamı
Ə b u T a h i r – Sabbahın xidmətçisi
S a q i y ə – gənc, yosma bir saraylı qız
M ü q t ə d i b i l l a h – Bağdad xəlifəsi
Ə b u Ş ü c a – onun vəziri
K ö y l ü e r m ə n i – şərabçı

Müfti, Saib, Naib, başqa tələbələr, müridlər, çadırdaşlar, çömləkçilər, alverçilər, müştərilər, rəqqasələr, hökumət mə'murları, qulamlar, yavərlər, məzarçılar, əskərlər, saray qızları, sair qızlar və dəliqanlılar.

İLK PƏRDƏ

Nişaburda mədrəsə yaşayışı... Tələbələrə məxsus bir oda. Ətraf taxçalarda kitablar, üstürlab və sair həndəsə alətləri, sağda qapı başqa bir odaya, solda qapı dışarı açılar. Qarşıda iri pərdələr asılmış. Xəyyam həmpiyaləri olan Rəmzi ilə X ə r a b a t i ilə bərabər şərab içərlər, hər üçü gəncdir. Birinci – ciddi, səmimi, kəskin baqışlı və coşğun, ikinci – arıq, həssas, üçüncü isə bir az dolğun, yağız çöhrəli və laübalidir. Qədəhlər boşalırkən musiqi "Hicaz" çalar. Ətrafda isə minacat səsi yüksələr.

Ey fəzalarda gülümsər əbədi şe'rü xəyal!
O nə qüdrət, o nə həşmət, o nə ahəngü cəlal!?
Hər dəha çırpınaraq səndə arar feyzi-kəmal,
Yenə yoq kimsədə əsla səni idrakə məcal.

X ə y y a m

(heyrət və həyəcanla)

İştə, bir səs ki, edər göylərə şaşqınca xitab,
O sağır göy, əcəba, kimsəyə vermişmi cəvab?
O dərinliklərə, boşluqlara uçduqca xəyal,
Sanki çırpınmada bir şəhpəri yanmış qartal.

X ə r a b a t i

(alaycı qəhqəhə ilə)

Hər gələn bir yeni əfsanə satar,
O qaranlıq dama hər kəs daş atar.
Saqın, aldırma, həmən zevqinə baq,

(qədəhi göstərər)

Hər həqiqət buradan parlayacaq.

R ə m z i

Yoq deyildir o qaranlıqda işıq,
Bəşərin əczinə binlərcə yazıq.

(Xərabatinin uzatdığı qədəhi alıb içindəki şərabı süzərək)

İçəlim, iştə, bütün varlığımız,
Al şəfəqlərdə gülümsər yalnız.

X ə y y a m

"Xilqətin sirri müəmmadır, əvət,
Ürəfa saçsa da yüz bin hikmət.
Burda cənnət yapalım badə ilə,
Nəmə lazım o varılmaz cənnət"[1]

[1]Xəyyamın dırnaq arasına alınmış rübailərini H.Cavid tərcümə etmişdir.

(İçərlər, hər üçü sərxoşca oqur)

H ə r ü ç ü

Saqi, aman, mey ver bana,
Doldur, peyapey ver bana.
Bən abi-kövsər istəməm,
Mey ver bana, hey ver bana...
İçdikcə ruhum şad olur,
Hər qayğıdan azad olur.
Mey ver – gözəlsiz, nəş'əsiz,
Hər duyduğum fəryad olur.

Yenə qədəhlər dolur, bu zaman Xəyyamın oda arqadaşları Xacə Nizamülmülk ilə Sabbah gəlir, birinci – vüqarlı və həlim, ikinci isə titiz və qurnazdır.

S a b b a h

(Xəyyamı əzici baqışlarla süzərək)

İştə, seyr et, bu nə sapqınca oyun.

X ə y y a m

Buyurun siz də için...

S a b b a h

(qızğın və kinayəli)

Eşq olsun!..
Bir düşün, hiç sana layiqmi bu hal?

X ə y y a m

Gəl də sızlanma, otur, bir nəfəs al.

S a b b a h

Kimdi bunlar?

X ə y y a m

(laübali gülüşlə birər-birər göstərər)

İki dostum – Rəmzi,
Şən Xərabati anıb gəldi bizi.
Qayğı bilməz, içərək əyləniriz,
Ayrı olsaq da həqiqətdə biriz.

X ə r a b a t i

(*kinayəli qəhqəhə ilə)*

Şimdi anlat, baqalım, bunlar kim?

X ə y y a m

İştə, bunlar da bənim həmdərsim;
Biri Sabbah, o biri Xacə Nizam.

R ə m z i

Sən nəsin?

X ə y y a m

Bən də sapıtmış Xəyyam.

(Gülüşürlər)

S a b b a h

(Rəmziyə)

Bu gülüşlər nə demək? Hey, sarsaq!..

X a c ə N i z a m

(bir kitab alaraq oqumaq için yan odaya keçərkən, Sabbaha)

Bəri gəl, onları asudə bıraq.

S a b b a h

(*Xəyyama)*

Nə olur, böylə azıb getsə bəşər,
Səncə əfsanəmidir xeyr ilə şər?

X ə y y a m

Bizə gülməzsə həqayiqdəki sirr,
Sərxoş ol, ya ayıq ol, fərqi nədir?

S a b b a h

(coşaraq, Xərabatini göstərir)

Sana bir eşmi o divanə səfil?
Bir düşün, mədrəsə meyxanə deyil!

X ə y y a m

Kaş ki, olsaydı... İçib sən də bir az
İncəlirdin...

S a b b a h

Yetişir... Sus, yaramaz!

X ə y y a m

Bumu zevq əhlinə layiq ikram?

R ə m z i

Gedəlim, içdiyimiz oldu haram.

S a b b a h

Ramazan aqşamı, hər dildə niyaz,
Sizə İblis olur ancaq dəmsaz.

X ə r a b a t i

Bən ayıldım...

R ə m z i

Gedəlim, saçma yetər...

S a b b a h

(bağırır)

Sayğısız...

X ə y y a m

Həddini çoq aşma, yetər...

X a c ə N i z a m

(gələr)

Dur, nə olmuş?

S a b b a h

(*Rəmzini göstərər)*

Bəni təhqir eylər.

X ə y y a m
Nə yazıq...
R ə m z i
Gəl, gedəlim...

(Xərabati ilə bərabər çıqarlar)

S a b b a h

Haydı, yetər.

(İçəri girən xidmətçiyə şərab sürahisini və qədəhi göstərir)

Durma, al, bunları rədd et buradan,
Al da qır həpsini...
Əbu Tahir çıqar.

X ə y y a m

(Sabbahı yan baqışla süzərək gülər)

Bədbaxt insan!..

X a c ə N i z a m

Çoq təəssüf, umulur şeymi bu hal?
Düşünün, hər ikiniz əql-kəmal.
Yaşadıq bunca zamandır gülərək,
Bu qırıqlıq, bu soyuqluq nə demək?

(əllərini bir-birinə verir)

Barışın, son gecəmizdir barışın,
Hər kimin yıldızı parlarsa yarın,
Arqa olsun da gərək bir-birinə,
Çıqalım bəlkə səadətli günə.
And içək!

X ə y y a m

Anda nə hacət, söz bir.

S a b b a h

Razıyım bən də, gözəl bir tədbir.

X a c ə N i z a m

Bunu vaqtilə sən açdın gerçək,
Yüksələn düşkünə yardımçı gərək.

Ə b u T a h i r

(*xızlı addımlarla girər)*

Gəliniz, minbərə çıqmışdır imam,
Saray ərkanı bu gün burda tamam.

X a c ə N i z a m

Gedəlim camiyə.

X ə y y a m

Camidənsə,
Musiqi məclisi xoşdur bəncə.

(*Bərabər çıqarlar)*

S a b b a h

Biri vaiz, biri sazəndə arar,
Bən sükut istərim, ancaq bu qadar.

(Taxçadan bir şüşə alar, su töküb çalqar)

Ə b u T a h i r

O nədir?

S a b b a h

İştə, əcaib dərman,
Bir yudum içdimi bundan insan,
Bütün aləm görünür cənnət ona,
Bunu hind alimi öyrətdi bana.

Ə b u T a h i r

Cənnət istərsin əgər, camiyə var,
Çoq saray qızları gəlmiş...

S a b b a h

(e'tinasız)

Nə çıqar?..
Bu sırada qapı barmaq ucu ilə vurulur.
Baq, gələn kimdir?

Ə b u T a h i r

(qapını açıb baqar, heyrətlə)

O işvəli nur
Qız deyil, sanki şəfəq yavrusudur.
Çıqar, dalğın baqışlı Sevda girər, əyilər.
Buyurun, kimsiniz?..

S e v d a

İsmim Sevda...

S a b b a h

Əmriniz?

S e v d a

Lütf edin, imkan varsa
Baqınız taleyimin yıldızına,
Açınız həp gələcək ömrü bana.

S a b b a h

(məmnun gülümsəyişlə)

Bəni hardan tanıyor heykəli-naz?

S e v d a

Şanlı Xəyyamı, əcəb, kim tanımaz.

S a b b a h

(ətrafa)

O nə həşmət, nə gözəl, şux əndam,
Şübhə yoqdur, bəni sanmış Xəyyam.

(taxçadan üstürlabı götürər)

Cəbrə, ya hikmətə vaqif bir adam,
Səncə bir falçımı ya?! Anlayamam.

S e v d a

Xayır, əsla!.. Bilirim, şairsin,
Elmi-hey'ətdə ki pək mahirsin.
Nə olur, göydəki yıldızlara baq,
Bir xəbər ver bana.

S a b b a h

Dur, etmə məraq.

S e v d a

O nədir?

S a b b a h

Aləti-kəşf, üstürlab,
Bizə yalnız bu verir bəlli cavab.

(barmağı şaqağında düşünür, ani bir hərəkətlə şüşədəki dərmandan bir az qədəhə töküb Sevdaya verər)

Hələ ilk öncə bu şərbətdən için.

S e v d a

Bu niçindir əcəba, söylə, niçin?

S a b b a h

Evliya türbəti var bunda, inan,
İçsə hər kim olur azad acıdan.
Dəyişər taleyi, iqbalı gülər.

S e v d a

İçəməm.

S a b b a h

(sinirli)

Hiç bu olur şeymi, yetər,
Varsa qəlbində bir az şübhə, niçin
Bu qadar vaqtımı aldın...

S e v d a

Lakin...

S a b b a h

Sana əyləncəmiyim bən, söylə?!

S e v d a

Pək gözəl, ver içəyim...

(Alıb içir. Sabbah məmnun qalır)

S a b b a h

Baq, öylə.

Bu sırada işıq azalır, ikinci pərdə qalqar, dönməkdə bulunan elektrik kürəsi vasitəsi ilə rəngarəng qıvılcımlar görülür. Sevda gözlərini ovuşdurar.

S e v d a

Dəhşət, bu nə əfsanəli türbət,
Bilməm ki, alavdanmı bu şərbət?
Sarmış bəni atəşli böcəklər,
Bir baq, nə qıvılcımlı çiçəklər.

S a b b a h

Aldırma, keçər həpsi.

S e v d a

Xayır, baq,
Canlandı, dumanlandı su, topraq.

Başındakı ağ ipək örtünü bir yana atar, Sabbah onun üstündəki atlas urbani də alır, yalnız incə köməkdə qalır. Dağınıq, qumral saçları omuzları üzərinə dağılar.

S a b b a h

(*gözlərini onun gözləri içərisinə dikərək)*

Aldırma, sönər şimdi o zülmət,
Hər yanda gülümsər yeni cənnət.

Səhnənin işığı artar. Ətrafda iri çiçəklər və kələbəklər görülür.

S e v d a

(çocuqca sevinclə)

Ya Rəb, nə lətafət!

S a b b a h

Baq, doğdu günəş, güldü çiçəklər,
Seyr et, nə gözəl şən kələbəklər.

S e v d a

Dur, rəqs edəcəklər.

Rəqs ahəngi başlanır. Çiçəklər və kələbəklər pəri qiyafətli qızlar olub oynayaraq, qıvrılaraq, süzülərək Sevdayı araya alarlar, Sevdada heyrət və həyəcan

S e v d a

Oh... Bən bu tamaşaya vuruldum,
Gəl, gəl bana, ruhum.

(qızlar onu oqşayaraq uzaqlaşırlar. Sevda qollarını açaraq)

Dur, getmə, aman, köksümə yaslan,
Gəl, qaçma yanımdan.

S a b b a h
Baq, başladılar cünbüşə.

S e v d a

(əlilə)

Sakit...
Söylənmə, çəkil, get.

(qızlara tamaşa edərək söylədikləri şərqini dinlər. Bu sırada Sabbah onun yelpazəsini alaraq onu yellər)

Q ı z l a r

(Sevdaya yaqlaşarlar)

Ey sevgili afət! Bu nə halət, nə qiyafət?
Nerdən bu lətafət?

Dan yıldızı qoynunda böyütmüş səni guya,
Yoq bənzərin əsla!..
Bir busə dilər gözlər o süzgün baqışından,
Aləm sana heyran.
Hər yosmayı qısqandıracaq işvələrin var,
Xoş cilvələrin var.

S e v d a

(*yerindən qalqaraq)*

Heyrət!.. Nə gözəllik, nə şətarət,
Seyr et! O nə daşqınca bəkarət.

(qızlara)

Siz kimsiniz, ey qafiləyi-naz,
Olmaq dilərim bən sizə həmraz.

(Sabbah yarımqəhqəhə ilə gülür)

Q ı z l a r

Bir rəng ilə ahəngə büründük,
Qarşında göründük,
Qoşduq da, aqışdıq sana bir an.
Gəl, nazına qurban!
Uç, gəl bizə, ey sevgili dilbər,
Gəl sən də bərabər.

Qızlar süzülərək uzaqlaşarlar. İkinci pərdə qapanar. Sevda tələşla ilərilər.

S e v d a

Ah, iştə qayıb, getdilər, eyvah!..

S a b b a h

(öpmək istər)

Gəl, gəl bana...

S e v d a

(geri çəkilər)

Etdim sana ikrah.

S a b b a h

Nazlanma, deyil könlüm oyuncaq.

(Qolları arasında sıqar)

S e v d a

Rədd ol, yetişir, sayğısız alçaq.

X a c ə N i z a m

(gələr)

Kimdir bu? Niçin, böylə sayıqlar?

S a b b a h

Bir qız ki, gəlib baxtını yoqlar.

(*Sevdayı geyindirər)*

Al, urbani gey, haydı, gələn var.

S e v d a

Onlar hanı? Ah, nerdədir onlar?

X a c ə N i z a m

Bir söylə saraydanmı o?

S a b b a h

Bilməm...

X a c ə N i z a m

(açıq qapıdan dışarını göstərər)

Gəl, baq, onu izlər bütün aləm.

S a b b a h

Dəhşət!.. Duramam burda...

(Çıqar)

X a c ə N i z a m

Çəkil, sus...

(Sevdayı diqqətlə süzər, ətrafa)

Girmiş də bəşər cildinə tavus.

S e v d a

Ah, nerdə o dilbər kələbəklər,
Burdan süzülən canlı çiçəklər.

X a c ə N i z a m

Bilməm...

S e v d a

(sinirli)

Əcəba, səndəmi sapqın?
Xəyyamı çağır, nerdə o çapqın?

X a c ə N i z a m

Əfv et onu, pək suçlu da olsa.

Bu sırada əskəri musiqi... H a c i b, eşikağası və hökumət mə'murları girərlər, saray qızları da onları izlər.

S a r a y q ı z l a r ı

Sevda?! Bu nədir, Sevda?!
Etdin bizi sən rüsva.
Layiqmi adın gəzsin
Nifrətlə dodaqlarda...

S e v d a

Sevda pək uzaqdır ləkələrdən,
Ah, uydum o əfsunçuya birdən.

(qədəhi göstərər)

Şərbətdən içib sanki bayıldım,
Siz gəldiyiniz anda ayıldım.

H a c i b

(kinli)

Aydındır, əvət, mədrəsələr həp,
Hər kərpici altında bir əqrəb.

(Xacə Nizamı yaqalar)

Gəl, xain, ədəbsiz, nə cəsarət?!

(Qolunu bağlayıb götürürlər)

S e v d a

Yoq, onda xayır, zərrə xəyanət.

S a r a y q ı z l a r ı

Sevda, gedəlim, Sevda,
Durmaq yaramaz burda.
Gəl, gəl, ulu xaqanın
Qalmış gözü yollarda.

Yoqdur bir eşin əsla
Ən şanlı saraylarda,
Bir yosma gövərçinsin,
Ardınca uçar dünya.

X ə y y a m gələr, onları tamaşa edib dinlər, coşğun bir ahənglə

X ə y y a m

Alqış, bu nə aləm, bu nə tufan?
Çarpışmada ahəng ilə əlvan.
Yıldızları göylərdə ararkən,
Hücrəmdə gülümsər bana birdən.

(Sevdayı süzərək)

Ah, sən, hələ sən... Başqa çiçəksin,
Bilməm, kimi xoşkam edəcəksin.
Bir tanrıya lazımsa tapınmaq,
Zevq əhli tapınsın sana birdən.

H a c i b

Divanəmi? Şairmisin?

X ə y y a m

Əsla!..
Peyğəmbər idim, ümmətim olsa.

H a c i b

Gəl, saçma bütün sözləri...

(gedərlər, Sevda dönüb Xəyyamı vurğunca baqışlarla süzər,
Hacib isə qolundan tutaraq)

Gəl, gəl...

S e v d a

(ətrafa)

Ox, hər kəs olur könlümə əngəl.

(Sevda iki-üç adım yürür, təkrar dönüb baqır)

X ə y y a m

Gəldin də, niçin pənbə bulutlar kibi aqdın,
Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın?
Şimşək kibi çaqdın da, niçin könlümü yaqdın,
Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın?

(Sevda gülümsər və süzgün baqışlarla uzaqlaşar. Sevda getdiyi sırada Xəyyam onu izləyərək)

Sərpildi alev ruhuma süzgün baqışından,
Sarsıldı da həp bənliyim, ey afəti-devran.
Gəl, gəl, olayım səndəki hər cilvəyə qurban,
Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın?!

Pərdə

İKİNCİ PƏRDƏ

Bazar... Qarşıda çadırçı və çömləkçi dükanları vardır. Taxçalarda hər dürlü çömlək və saqsı sürahi qoyulmuş, işçilər bir yanda çadır toquyurlar, bir yanda çamurdan çömlək, sair saqsı qablar yoğurub yaparlar. Yaşıl dalları ətrafa sarqan iri püsküllü söyüd (*bidiməcnun)* altında şərbətçi sıra iskəmlə üzərində oturan müştərilərinə şərbət verir. Ortalıqda başqa şeylər də satılır. Xoca, tacir, köylü və sairə alış-verişlə məşğuldurlar.

B i r i n c i s a t ı c ı

(*məxsusi bir ahənglə)*

Sərin şərbət... Gəl iç, gül şərbətindən.

İ k i n c i s a t ı c ı

Gözəl halva, doyulmaz ləzzətindən.

Ü ç ü n c ü s a t ı c ı

Qızarmış tazə əkmək, tazə qaymaq,
Çabuq gəl, durma gəl, fürsətdir ancaq.

Neydə "dəşti" çalınar, gənc çadırçı eyni ahənglə oqur.

G ə n c ç a d ı r ç ı

Bahar olmuş dedim, xülyayə uydum,
Haman bir gözləri şəhlayə uydum.
Adım Məcnun deyilkən dərdə düşdüm,
Vəfasız, yosma bir Leylayə uydum.

Ç ö m l ə k ç i l ə r

(*başqa ahənglə)*

Çamurdan xəlq olunmuş derlər, insan,
Qədəh yapdıq biz insan torpağından.
Sunub mey ta xərabat əhli ondan,
Unutsun dərdi, gülsün ömrü bir an.

X ə r a b a t i ilə R ə m z i bərabər gəlirlər.

X ə r a b a t i

(ortayaşlı, qarasaçlı çadırçıya)

Bana baq... Ey, bana baq, ustabaşı,
Gördüyün varmı bizim arqadaşı?

Ç a d ı r ç ı

Kimi?!

R ə m z i

Xəyyamı...

Ç a d ı r ç ı

Xayır, görməmişiz.

X ə r a b a t i

Bəlkə evdən buluruz.

(İki-üç adım yürür)

Ç a d ı r ç ı

Getməyiniz.
Köçmüş ordan, sataraq var-yoqunu,
Altı aydır ki, görən yoqdur onu.

R ə m z i

Görünür, ruhunu sıqmış bu diyar.

X ə r a b a t i

Başqa bir ölkəyə varsın, nə çıqar?!

Rəmzi ilə Xərabati yavaş adımlarla getmək üzrə ikən Xəyyam sarıqsız və əbasız olaraq, saçları dağınıq, arıq və solğun çöhrə ilə qarşıdan çıqar. O tanınmayacaq dərəcədə dəyişilmişdir. Satış için əlində tutmuş olduğu kitabları uzadaraq onlara göstərir.

X ə y y a m

Alın, əsla ələ keçməz bu kitab.

X ə r a b a t i

O kitabdan eyidir bizcə şərab.

X ə y y a m

(kəskin)

Al dedim, al!.. Yeyəcək əkmək için
Para lazım...

X ə r a b a t i

(para verir)

Al da rədd ol, miskin!..

X ə y y a m

(almaz və qızğın)

Sana qalsın sədəqən.

X ə r a b a t i

(əli ilə rədd edər, usanmışcasına)

Haydı, yetər!

R ə m z i

Baqayım bir, nə kitabdır, göstər?

X ə y y a m

İbn Sinayı eşitdinsə, oqu,
İştə Şərqin o böyük feyləsofu.
Baq, yaratmış nə böyük xariqələr,
Bir dəha nuri ki, daim parlar.

(*kitabları birər-birər göstərir)*

Baq, şu "Məntiq", bu da "Qanuni-şəfa"
Bunların qədrini anlar ürəfa.

R ə m z i

(şübhəli məraqla ətrafa)

Omu!.. Gerçək omudur?.. Lütf ediniz,
Varmı Xəyyamə bir az nisbətiniz?

X ə y y a m

Doğmuşuz hər ikimiz bir anadan.

R ə m z i

(Xərabatiyə)

Şübhə yoq, sevgili Xəyyamdır, inan.

(qucaqlayıb öpər)

Nə qiyafət bu, əzizim, bu nə hal?

X ə y y a m

Sorma, hiç sorma ki, oldum pamal,
Ac qalıb iştə qabıqdan çıqdım.
Bu uğursuz yaşayışdan bıqdım.

R ə m z i

Öncə bir çoq tələbən vardı sənin?

X ə y y a m

Həpsi "azmış" deyərək, bəslədi kin,
Uğrayan olmadı bir kimsə bana,
Uyudum çoq gecələr acqarına.

X ə r a b a t i

Sən ki, bir şair idin pək rəna,
O da bir faidə verməzmi sana?

X ə y y a m

Şairmi? Saqın, duyduğum ilhamə uyan yoq,
Şe'rimdəki əsrarı duyan yoq.
Yoq oqşayacaq ruhumu bir nuri-səadət,
İzlər bəni hər dürlü fəlakət.
Elmimdəki nöqsan ilə cəhlimdəki irfan
Hər an doğurur bəndə bir isyan.
Uydum da xəyalatə, sanıb kəndimi bilgic,
Baqdım ki, yaqar beynimi bir hiç.
Bir hiç ki, bütün şübhəli hikmətlərə asi,
Uydurma fəzilətlərə asi.
Gənc ömrümü atəşli dikənlər gəmirirkən
Həp varlığa isyan edərim bən.
İsyan!.. Ölü adət və təriqətlərə isyan!
Yaldızlı həqiqətlərə isyan!

R ə m z i

Hiç məraq etmə, keçər, həpsi keçər,
Əsrinin öksüzüdür dahilər.

X ə r a b a t i

(Xəyyamın qolundan tutar)

Haydı, gəl, etməyəlim ömrü hədər,
İçəlim badə, bütün qayğı gedər.

X ə y y a m

Qorqarım, bəndəki bədbin əhval
Sizə versin də məlal.

R ə m z i

Bil'əkis, səndəki xoş söhbətlər
Bizi dilşad eylər.

Ç a d ı r ç ı u s t a

(*Xəyyama yaqlaşaraq)*

Buna baq, halına, ətvarına baq,
Sanki zəncirini qırmış dustaq.
Bizə yoldaşdı o rəhmətli baban,
Bir çadırçıydı o da.
Görmədik öylə təmiz bir insan,
Sən nəsin? Bir budala!..

Bazar xalqı çadırçı ustanın sözlərini dinləyərək sinirli və coşğun

B a z a r x a l q ı

Saqın, aldanmayınız, qanmayınız,
İpi qırmış şu hərif,
Saçmadır sözləri, yalınız, yalınız
Adı çıqmış arif.

Ç a d ı r ç ı u s t a

Başı boş, cibləri boş, qarnı da boş,
Kədərindən sərxoş...

Ç ö m l ə k ç i

O, nücum elminə vaqif kibidir.

B i r i n c i s a t ı c ı

Ya, təbabət də bilir.

İ k i n c i s a t ı c ı

(Xəyyamın omuzunu oqşayaraq əylənir)

Söylə bir göydəki yıldızlardan,
Süzülən qızlardan...

Ü ç ü n c ü s a t ı c ı

Yeri almış bir öküz buynuzuna,
Hiç inandınmı ona?

X ə y y a m

“Ülkər ismilə, diyor, göydə yaşarmış bir öküz,
Bu bir əfsanə, yer altında da varmış bir öküz.
Arif olsaq bu öküzlər arasından bişək
Görürüz bir yığın ipsiz və yonulmaz eşşək”.

B a z a r x a l q ı

Bir baqın, sayğısız abdal nə diyor,
Bizi təhqir ediyor.

(Rəmzi ilə Xərabatini göstərirlər)

Arqadaşdır ona həp əyyaşlar,
Dəli, azğın başlar.

Çömləkçi usta toqatlayıb yoğurduğu çamurla çömlək yaparaq, Xəyyama

Ç ö m l ə k ç i u s t a

Yüksəlib arqadaşın Xacə Nizam,
Buldu parlaqca məqam.
Oldu Alp Arslana ən şanlı vəzir,
Sən nədən böylə fəqir?

X ə y y a m

Bir düşün, varsa əgər səndə bir az əqlü kəmal,
Bu çamur bir yığın insan ki, edərsin pamal.
O həqarətlə, toqatlarla yapılmış qablar,
Dünkü şahlar və vəzirlər ki, bu gün həpsi xəyal.

Ç ö m l ə k ç i u s t a

Biz də az-çoq biliriz, etmə məraq,
Hər kəs er-gec yeyəcək böylə dayaq.

Xəyyam uzun boğazlı və qulplu bir sürahi alaraq diqqətlə süzər

X ə y y a m

“Görünür bən kimi olmuş bu da bir aşiqi-zar,
Bağlamışdır onu zəncirinə bir zülfi-nigar.
Gördüyün qulpu çamur parçası zənn etmə, saqın,
Bir gözəl boynuna keçmiş qola çoq bənzəri var!”

Bu sırada S a b b a h ilə əli heybəli Ə b u T a h i r yolçu qiyafətində gəlirlər və Xəyyamın son sözlərini dinlərlər

Ə b u T a h i r

İştə, Xəyyam.

S a b b a h

Omu, gerçəkdən omu?!
Öylə bir şairin iqbalı bumu?

(Xəyyamı qucaqlar)

X ə y y a m

Səni ürkütdü bu halım yoqsa.

S a b b a h

Nə səfalət, umulur şeymi bu ya?!
Baş vəzir iştə bu gün Xacə Nizam,
Get də anlat, edər az-çoq ikram.

X ə y y a m

Qapısından keçər olsam, yaltaq,
Sivri dişlər vuruşub saldıracaq.

S a b b a h

Bəri gəl, bən bulurum çarə buna.

X ə r a b a t i

Dur, canım! Qalsın o işlər yarına.

(Ney çalınır)

R ə m z i

Gəl şu püsküllü söyüd kölgəsinə,
Könül uysün da bir az ney səsinə.

X ə y y a m

(heyrətlə)

İşləmiş ruhunu sən'ət və hünər.

X ə r a b a t i

Gəliniz.

(şərbətçiyə)

Ey, çabuq ol, şərbət ver.
Püsküllü söyüd altında oturub şərbət içərlər.

G ə n c ç a d ı r ç ı

(ney ilə bərabər oqur)

Keçənlərdən bizə əfsanə qaldı,
Sönüb Cəmşidi-Cəm, peymanə qaldı.

O parlaq, möhtəşəm kaşanələrdən,
Bu gün ıssızca bir viranə qaldı.

Çömləkçilər də eyni sözləri işçi ahəngilə təkrar edib çalışırlar.
Bu sırada Q u l a m əlində qırbac gəlir.

Q u l a m

Haydı, yoldan çəkilin, haydı...

Ç ö m l ə k ç i u s t a

Nə var?

Q u l a m

Seyrə çıqmış da saraydan qızlar,
Haydı yüzlər divara!

X ə y y a m

Oldumu ya?!
Göz niçindir əcəba?

Q u l a m

Sus, budala!..
Qırbacla vurar. Sabbah yola baqar.

S a b b a h

(tələşla)

İştə, Sevda... Bəni birdən tanısa
Qızaraq verdirir əlbəttə cəza.

Sabbah çadırların arqasına keçər. Bu sırada S e v d a qara qulların daşığı təxt-rəvanda gələr, ətrafında saray qızları coşğun bir sevinclə şərqi söylərlər.

Q ı z l a r

Alqış təbiətə,
Alqış bu sən'ətə
Dönmüş də cənnətə,
Hər yer gülümsüyor.
Sərməst olub bahar,
Hər səmtə gül saçar,
Yüzlər gülümsüyor,
Yüzlərdə nəş'ə var.

Qızlar əllərindəki çiçəklərdən birər-birər ayırıb Sevdanın ayaqlarına atarlar.
Xəyyam əskin baqışlarla onları süzər.

X ə y y a m

Bu gözəl yosmaların çiynədiyi,
Hər çiçək bir gözəlin göz bəbəyi.

S e v d a

Bana munis kibidir iştə bu səs.

(Xəyyama)

Söylə, kimsin? Nəçisin?

X ə y y a m

Bir bikəs.

S e v d a

Hanki sən'ətlə məraq etdin sən?

X ə y y a m

İzlərim göydəki yıldızları bən,
Lakin onlar pək uzaqdan daha şən,
Daha dilbər və gözəldir, bilsən,
Bizə yaqlaşdımı, bəsbəlli, yaqar,
O alav səndəki gözlərdə də var.

S e v d a

(nədimələrə)

Bəni titrətdi bu coşqun sözlər.

X ə y y a m

(ətrafa)

Nə qadar işvəli, süzgün gözlər.

Q ı z l a r

Sevda, gedəlim, Sevda,
Xaqan darılır duysa.
Şaşqındır o divanə,
Gəl, gəl, oluruz rüsva.

S e v d a

Sus, onda fəzilət var,
Qüdrət və cəsarət var.
Çarpınmada, baq, könlüm,
Bilməm ki, nə hikmət var.

Sevda və qızlar gedərlər, Xəyyam onlar getdiyi tərəfə baqaraq, coşğun.

X ə y y a m

Nədir, bilməm, günahım, məst ikən gözlər visalından,
Bənim məhrum olan, ey nazlı afət, gül cəmalından;
Dəmin ilham alırkən şe'rə bənzər hər məqalından,
Keçər yıllar, xəbər tutmam sevincindən, məlalından.
Könül sənsiz səfa duymaz şəfəqlərdən, çiçəklərdən,
Bütün ruhumda, vicdanımda sənsin, ah... yalnız sən...
Sənin eşqinlə ruhum çırpınırkən, sızlar, inlərkən,
Pərişan, xəstə halım hiç keçərmi bir xəyalından?!

Bu sırada əskəri musiqi ətrafı çınlatır. Sabbah çadırın arqasından çıqaraq yola baqar.

S a b b a h

Bu nə?

R ə m z i

Alp Arslan, o məğrur insan
Geri dönmüş sanırım Ceyhundan.
Orda etmişdi əhali isyan,
Görünür, susmuş o qızğın tufan.

X ə r a b a t i

(Rəmzinin qolundan tutub)

Nəmə lazım, baqalım keyfimizə, zevqimizə,

(Xəyyama)

Gedəlim, haydı!..

S a b b a h

Saqın, şimdi sizə
Verəməm sevgili Xəyyamı.

R ə m z i

Niçin?

S a b b a h

Çünki fürsət çıqar əldən.

H a c i b

(iki qulamla gələr)

Çəkilin!

A l p A r s l a n ətrafını saran saray ərkanı və ordu ilə bərabər gəlir.

Y a v ə r

Yaşasın qutlu, yenilməz xaqan!

C a m a a t

Yaşasın Alp Arslan!

Y a v ə r

Parlayıb bəxti, səadət bulsun!

C a m a a t

Yaşasın!..

Bu sırada qolları zəncirli Y u s i f adlı bir dəliqanlı arqadan gələrək nifrətlə bağırar.

Y u s i f

Rədd olsun!..

A l p A r s l a n

Susdurun! Kimdir o?

Y a v ə r

Yusif məl'un.

C a m a a t

Yaşasın!

Y u s i f

(daha kəskin)

Məhv olsun!

Y a v ə r

Səni Ceyhunda niçin asmadılar?

Y u s i f

Şimdi asdır!

A l p A r s l a n

Bu nə, miskin canavar!

(*Yavərə)*

İki gün sonra asılsın o dara!
İbrət olsun bütün isyançılara.

Gedirlər, Yusifi də bərabər aparırlar. Sabbah Xacə Nizama yaqlaşır.

S a b b a h

Yaşasın xaqan!

Q u l a m

Sus!

X a c ə N i z a m

O kimdir, əcəba?

S a b b a h

Möhtərəm Xacə, vəfa, əhdə vəfa.

X a c ə N i z a m

(qulamlara)

Çəkilin, haydı!

(Sabbahın əlini sıqaraq)

Əzizim Sabbah.

Nerdəsin?

S a b b a h

Bir qadar oldum səyyah.

X a c ə N i z a m

Nerdə Xəyyam? O, Nişaburdamı ya?

S a b b a h

(kənarda durmuş dalğın Xəyyamı göstərərək)

Sizi görmək diliyor iştə o da.

X a c ə N i z a m

Ah, o Xəyyammı? Nə pəjmürdə xəyal...

(qucaqlayıb öpər)

Bir böyük şairə layiqmi bu hal?!

X ə y y a m

Varlığım bir hiçə bənzər mübhəm,
"Hiç var olmaz, buna yoqdur şübhəm".
Bana yan baqsa əgər anlamayan,
Sanma eylər buna ruhum isyan.
Anlayanlar belə yan gözlə süzər,
O baqışlar bəni üzdükcə üzər.

X a c ə N i z a m

Saqın, aldırma kor olsun da cihan,
Günəşin nuruna gəlməz nöqsan.
Sən küçülsən də böyüksün, hətta
Qopsa zülmət, yenə parlar o zəka!..

Pərdə

ÜÇÜNCÜ PƏRDƏ

Alp Arslan sarayında qəbul odası... Aqşamüstü, Hacib düşüncəyə dalmış. Bu sırada Xacə Nizam gəlir, Hacıb baş əyər.

X a c ə N i za m

Haydı, Sabbah ilə Xəyyamı çağır.

H a c i b

Bu saət.

(qapıya çıxar)

İştə, əfəndim, hazır.

Sabbah və Xəyyam kübarca geyinmiş və yüzləri təraş edilmiş gəlirlər.

X a c ə N i z a m

(*yer göstərir)*

Buyurun, kimsə düşünməzdi ki, biz
Yenə bir gün görüşüb birləşiriz.

(Sabbaha)

Söylə, sən nerdə idin bunca zaman?

S a b b a h

Qaçaraq mədrəsədən qorqumdan,
İsfahan səmtini etdim məskən.
Bəni cəlb etdi Nişabur yenidən.

X a c ə N i z a m

Bən də bir xeyli üzüldüm o gecə,
Etdilər öncə bir az işgəncə.
Sonradan məhkəmə suçsuz buldu;
Gülərək taleyimiz yar oldu.

S a b b a h

O səadət günəşindən az-çoq
Parlarız biz də əminim...

X a c ə N i z a m

Söz yoq,
Edilən əhdimizi tutmalıyız.

(Xəyyamı hörmətlə süzər)

Şairindir sıra, anlat yalınız,
Hanki bir rütbəyə meylin varsa,
Hökmü bir anda olunsun icra.

X ə y y a m

Yaşamaqçin bana, mümkünsə əgər,
Bir əkin tarlası, bir bağça yetər.

X a c ə N i z a m

Bir də kaşanə gərək məsrəf için,
Hər nə lazımsa edərlər tə'min.

X ə y y a m

Çoq təşəkkür, bu səadət yetişir,
Bu da olmazsa yetər nan-pənir.

X a c ə N i z a m

(Sabbaha)

Sən nə istərsin, əzizim, söylə.

S a b b a h

Bir vəzifəylə sərəfraz eylə.

X a c ə N i z a m

Sana hər dürlü böyük rütbə yarar,
Bilirim, səndə siyasi başı var.

(Sabbahda sevinc)

S a b b a h

Dilim aciz, nə deyim bilməm ki,
Ah, diriltdin bəni.

X a c ə N i z a m

(ətrafa)

Qurnaz tilki.

Bu sırada pərdə arqasında incə bir musiqi çalınar.

X ə y y a m

O nə mahir, nə gözəl barmaqlar.

X a c ə N i z a m

Sarayın iştə böyük aləmi var,
Şanlı bayramdır, əzizim, bu gecə.
Var ziyafətlə geniş əyləncə,
Bu gün Alp Arslan için xoş bir gün,
Qeysəri-Ruma o gəlmiş üstün.

Xacə Nizamın işarəti və Hacibin toqunması ilə ortadakı pərdə qalqar, son dərəcə parlaq və süslü bir aləm görülür. A l p A r s l a n , s a r a y ə r k a n ı , s a r a y l ı x a n ı m l a r və y a v ə r l ə r önlərində şərab qədəhləri olaraq zevqə dalmışlar. Musiqi dəyişər, qalqıb xaqanın şərəfinə içərlər.

M ə c l i s d ə k i l ə r

Binlərcə yaşa, ey yılmaz,
Şevkətli, böyük xaqan!
Binlərcə yaşa, Alp Arslan!
Binlərcə yaşa, Alp Arslan!

Qarşında aman bulmaz
Ən qorqulu bir düşman.
Binlərcə yaşa, Alp Arslan!
Binlərcə yaşa, Alp Arslan!

X a c ə N i z a m

(şaha)

İştə Sabbah və şair Xəyyam.

A l p A r s l a n

(yer göstərir)

Oturun.

(X a c ə N i z a m a)

Bunlara lazım ikram.

X a c ə N i z a m

(*Xəyyama işarətlə)*

İştə, hikmətdə böyük qüdrəti var
Cəbrü-hey'ətdə də çoq şöhrəti var.
İbn Sina kibi Şərqin yüksək
Bir dəhasından o almış örnək.
Yapacaq olsa rəsədxanə bizə,
Şan verir fənnilə tariximizə.

A l p A r s l a n

Burda yoq şübhə ki, Xəyyam ikidir,
Biri alim, biri parlaq şair.
Şimdi yalnız o böyük şairdən
İki söz dinləmək istərdim bən.

X ə y y a m

(coşğun qalxar)

“Bir böyük quş qonaraq bürcünə gördüm Tusun,
Süzərək kəlləsini pəncədə Keykavusun;
Sanki söylərdi: hanı dünkü o həşmət, o cəlal?
Hanı keçmişdəki avazeyi-təblü kusun?”

A l p A r s l a n

Ah, bu sözlər nə qadar incə, dərin,
Böylə kəskinsə də, xoşdur şe’rin.

X ə y y a m

“Uğrayıb dün gecə bir ustaya oldum həmraz,
Badə ibriqinə gördüm ki, yapar qulp, boğaz.
Baq, dedim, bunlar ölən şahü gəda ə’zası,
Nə şahın dəhşəti qalmış, nə gədalərdə niyaz”.

A l p A r s l a n

Pək həkimanə, əvət, sözləriniz.

X a c ə N i z a m

(Saqiyə Xəyyamı göstərir)

Ona mey sun.

S a b b a h

Bana şərbət veriniz.

A l p A r s l a n

Buyurun, xurma şərabından için,
Yeni bir nəş’ə verir şair için.

X ə y y a m

Bəncə Bağdadə Nişabur üstün,
Xurmadan fərqi böyükdür üzümün.
Saqiyə Xəyyama üzüm şərabı verir.

A l p A r s l a n

(*qədəhini qaldırır)*

İçəlim, iştə var olsun şair!

X a c ə N i z a m
Öylə şair sanırım pək nadir.

Hər kəs içərək Xəyyama qarşı əyilər. Bu sırada rəqs ahəngi başlar. Bir yığın tüllərə və ipəklərə bürünmüş qızlar (*Rum qızları*) gəlir və oynarlar.

A l p A r s l a n

Baqınız, incə zəfər qönçələri,
İştə, Rum qeysərinin töhfələri.
Qızlar Rum ahənginə uyğun oqur və oynarlar.

Q ı z l a r
Bu bəlkə süslü bir yalan,
Diyorlar, iştə hər zaman
Çıqar Olimpə şadman,
Ən işvəkar ilahələr.
Gülər gülür, gülür gülər,
Həyat için səfa dilər.
Gəlincə rəqsə əl-ələ,
O incə nazlı qafilə
Aqıb coşan sevinc ilə
Həyat için səfa dilər.
Gülər gülür, gülür gülər
O bəxtiyar ilahələr.

Bu sırada Sevda cariyələri ilə bərabər gələr. Rəqqasələr onu qarşılayıb çıqarlar.

A l p A r s l a n

Sevda nə qadar nazlı bu aqşam,
Yalnız o verir şairə ilham.

(Sevdayı vurğunca baqışla süzər)

S e v d a

(oqur)

Bir vəhşi gövərçin kibi bən də,
Şən könlümü azadə dilərdim.
Seyrana çıqıb dağda, çəməndə,
Güldükcə günəş bən də gülərdim,
Şən könlümü azadə dilərdim.

A l p A r s l a n

Alqış o gözəl şe'rə ki, şair
Bir söz bulamaz vəsfinə dair.

S e v d a

(dəvam edər)

Qəlbimdə sönər incə həvəslər,
Dişlər bəni altınlı qəfəslər,
Ruhumda qopar ən acı səslər,
Bən bir quzu olsam da mələrdim,
Şən könlümü azadə dilərdim.

A l p A r s l a n

(həyəcanla yerindən qalqar)

Alqış sana, Ceyhun qızı, bəndən nə dilərsin?
Şaqraq dodağın susmasın, Allahı sevərsin.
Aç könlünü, layiq sana hər dürlü mükafat.
Sevda! Nə dilərsin, gözəlim, aç bana anlat?!

Ölkəmdə aqışmaqda bu gün Dəclə və Ceyhun,
Fərmanımı dinlər qoca Ümman ilə Quzğun.
Var iştə, xəzinəmdə yığınlarla cəvahir,
Hər hankisi parlaqsa, əmin ol ki, sənindir.

S e v d a

Yoq bir şeyə könlümdə məhəbbət.

A l p A r s l a n

Aç söylə, yetər fəzlə nəzakət.

S e v d a

Mümkünsüz olur bəlkə, nə hacət.

A l p A r s l a n

Bir söylə, nə istər gözəl afət?

S e v d a

Bir istəyəcək varsa da... lakin...

A l p A r s l a n

Aç könlünü, Sevda, nə dilərsin?!

S e v d a

Xəyyamı edin əmrimə tabi,
Zəncirlədiniz, iştə bu, kafi.

(Hər kəsdə heyrət)

A l p A r s l a n

Lakin suçu nəymiş, onu göstər?

S e v d a

Bilməm, könül ancaq bunu istər.

X ə y y a m

Xəyyamə nə lazımdı ki, zəncir,
Onsuz da köləndir, bu nə təhqir?

S e v d a

(Xəyyamə işarətlə)

Şair nə qadar olsa da mahir

(Sabbahı göstərir)

Məhv olmalıdır şimdi o sahir.

S a b b a h

(*fəna halda sarsılır, ətrafa*)

Yoq şübhə ki, sanmış bəni Xəyyam,
Əldən nə gəlir, etsə də e'dam?

A l p A r s l a n

Sevda, bunu gəl istəmə bəndən,
Xəyyamı bıraq, hər nə dilərsən,
Rədd etməyəcəkdir səni xaqan.

S e v d a

Rədd etsə?!

A l p A r s l a n

Xayır, yoq buna imkan,
Qırmam səni, aç söylə, nə dersin?

S e v d a

(Xəyyamı göstərir)

Şən könlünü şair bana versin.

A l p A r s l a n

Gerçəkmi?..

S e v d a

Əvət, bən ona vurğun,
Mə'şuqum ikən aşiqim olsun!

A l p A r s l a n

Heyhat, olamam rəddinə qadir.

S e v d a

Əmr et, bənim olsunmu o şair?

A l p A r s l a n

(bir qədər düşüncədən sonra)

Olsun!

(ətrafa)

Nə müəmmalı tamaşa...

(Sevdaya)

Zəncirlədirdin onu...

S e v d a

Haşa!..

Xəyyam dediyim iştə o qurnaz.

(*Sabbahı göstərər*)

S a b b a h

(şaşqın)

Sabbahdır adım.

S e v d a

Öyləmi?

(*ətrafa)*

Canbaz!..

A l p A r s l a n

Sevdayı, dilərdim, gedə Bağdadə hədiyyə,
Qismət bu imiş, oldu böyük şairə töhfə.

X a c ə N i z a m

Şən taleyi Xəyyamın, əvət, hər şeyə üstün,
Biz istərik ilhamı da Sevda kibi gülsün!

X ə y y a m

(laübali və coşğun, yerindən qalqar)

"Bən ömrümü sərməst olaraq şən dilərim, şən,
Bir dindəyim, azadə bütün küfr ilə dindən.

(Sevdayı süzər)

Sorduqda ki, mehrin nə? – Gülüb dəhrin ərusu,
Mehrim, dedi, şən könlünü yalnız bana versən".

X a c ə N i z a m

(Alp Arslana)

Birləşdi, demək şe'r ilə şair.

A l p A r s l a n

Bir cift ki, haman eşləri nadir.

X a c ə N i z a m

(Hacibin gətirdiyi məktubu oquyub dərin sevinclə)

Aydın gözünüz, cümlə səadət bizə həmrah,
Bağdadı atıb gəlməyə amadə Məlikşah.

A l p A r s l a n

Oğlummu!.. Vəliəh dimi görmək nə xoş iqbal,
Dolsun da qədəhlər, içəlim eşqinə dərhal!

(İçərlər)

M ə c l i s d ə k i l ə r

Urra!.. Yaşasın!

A l p A r s l a n

Baq, bunu olduqca bəyəndim.

(Hacibə)

Gəlsin şu ərəb qızları!

H a c i b

Hazırdır, əfəndim.

(*Çıqar, Xəyyam qalqar)*

X ə y y a m

Xaqana ricam var.

A l p A r s l a n

Nə imiş?

X ə y y a m

Dünkü əsirin
Əfv et, suçu olmuşsa da.

A l p A r s l a n

(Yavərə)

Get, söylə gətirsin.
Yavər təmənna edib çıqar.

X ə y y a m

Binlərcə şəhər ya qala almaqdan, əmin ol,
Bir sadə çoban könlünü almaq daha məqbul.

Bu sırada ərəb ahəngi ilə çalğı başlar. Şux və işvəkar ə r ə b q ı z l a r ı gələr və xaqana əyilirlər.

A l p A r s l a n

Baq, töhfədir onlar bana, göndərdi xəlifə.

X ə y y a m

(alaycı gülüşlə)

Din pərdəsi altında nə xoş, incə lətifə.
Rəqqasə ərəb qızları oynar və ara-sıra oqurlar.

R ə q q a s ə l ə r

Doğduq günəşin busələrindən,
Al pəmbə şəfəqlərdə yıqandıq.
İçdikcə alav kasələrindən,
Hər yıldızı bir şəbpərə sandıq.

Nadir bulunur bizdə bulut, sis,
Şən ruhumuzun üfqü kədərsiz.
Atəşli dodaqlar bizə munis,
Atəşli könüllər diləriz biz.

Rəqs bitər, Y u s i f i gətirirlər.

A l p A r s l a n

Zəncirini açdır, ola azad,
Bayram günü ta etməyə fəryad.
Zəncirini açarlar, iki adım ilərilər.

Y u s i f

Əfvinlə sevinməz könül, əfsus,
Zalım yenə zalımdır.

S a b b a h

Aman, sus!

A l p A r s l a n

Sən həddini aşdın da, rəzalət!
Nerdən sana, bilməm, bu cəsarət?

Y u s i f

Sən iştə, zəhər kasələrindən səhər-aqşam
Sundun bizə badə.
Evlər təməlindən yıqılıb qalmadı bir dam,
Sən etdin iradə.
Var-yoq soyulub getdi o bayquş xüləfayə,
Qoydun bizə minnət.

(acı qəhqəhə)

Onlar nə verirlər sana: əfyunlu hədiyyə –
Zəm-zəm suyu, cənnət.

Yıprandı xurafat ilə başlarda beyinlər,
Sənsin buna rəhbər.
Xırsızlara olduq kölə, yetməzmi səfalət,
Yetməzmi bu zillət!

A l p A r s l a n

(çılğın)

Cəllad!.. Hanı cəllad?

(Hacib gedir)

S e v d a

(tələşla)

Əfv et, ulu xaqan.

A l p A r s l a n

Yoq, yoq buna imkan!

X ə y y a m

Əfv etmə də bir dürlü cəzadır,
Qıymaq ona, əlbəttə, xətadır.
Layiqmi o bir mum kibi sönsün,
Hiçdən silinən kölgəyə dönsün?

A l p A r s l a n

Xaindir o, azğınlığı mə'lum.

(girən cəllada Yusifi göstərir)

Vur boynunu!

C ə l l a d

(dönüb şaşqınca və həyəcanla)

Oğlum! Əvət, oğlum!..

(silahı əlindən düşər)

Yıllarca qalıb bən sana həsrət,
Qürbətdə buluşduq, nə səadət.

(Qucaqlamaq istər)

Y u s i f

Rədd ol, deyilim bən sana evlad!

C ə l l a d

Yusif...

Y u s i f

Baba olmaz bana cəllad!

C ə l l a d

Pək suçlu isəm, görməli mə'zur,
Aclıq bəni etmiş buna məcbur.
Qatil deyilim, aləti-qətlim.

X ə y y a m

Məzlumdur, əvət, olsa da zalim.

A l p A r s l a n

(bağırır)

Vur boynunu!

C ə l l a d

(diz çökər)

Xaqan, ulu xaqan!
Əfv et onu, ver qətlimə fərman!

A l p A r s l a n

(Yavərə)

İlk öncə bunun boynu vurulsun!

C ə l l a d

(qalqar, köksünü açaraq)

Öldür də, qanın bəlkə durulsun.

Y u s i f

(acı qəhqəhə ilə)

Qansız yaşamaz sevgili xaqan,
Qan, saçdığı qan, içdiyi həp qan!

A l p A r s l a n

(*Yavərə)*

Susdur onu!..

Y a v ə r

Azğın, bu nə cür'ət!?

Y u s i f

(*qoynunda saqladığı ufaq xəncəri xaqanın köksünə saplar*)

Al, iştə gəbər!

A l p A r s l a n

Ah!..

(Deyə yıqılır)

S a b b a h

Bu nə dəhşət.

X a c ə N i z a m

Çıldırdı, həmən susdurun!

S e v d a

Eyvah...

Tələşla Xəyyamın qolları arasına sıqılır. Ara qarışar,
hər tərəfdən saldırıb Yusifi yaralarlar.

X ə y y a m

Çılğın bəşər İblis ilə həmrah.

C ə l l a d

Əfv et bəni, yavrum, bəni əfv et!

Y u s i f

Cəlladlara, zalımlara nifrət!..

(*Ölür)*

A l p A r s l a n

(uzaqlara işarətlə)

Oğlum, bəni məhv etdi bu ərzəl...

(Ölür)

X a c ə N i z a m

Məhv oldu o səndən daha əvvəl.

X ə y y a m

(cənazələri süzərək)

Bir anda sönüb getdilər onlar,
Yoq artıq o kinlər, həyəcanlar.
Heyrət!.. Nə amansız şu təbiət,
İnsan nə qadar saçma həqiqət...

Pərdə

DÖRDÜNCÜ PƏRDƏ

I SƏHNƏ

Xəyyamın iş odası... bir yanda hey'ət elminə aid rəsədxanə alətləri, bir yanda kütübxanə. İbn Sinanın əl məhsulu olan böyük rəsmi divardan asılmış. Tələbələr çalışır. Kimi pərgar ilə həndəsi şəkillər çəkər, kimi durbinlə yan pəncərədən günəşə baqar, kimi üstürlabla və bə'ziləri də kitab oxumaqla məşğuldurlar. Birinci tələbə durbini gözündən çəkərək.

B i r i n c i t ə l ə b ə

Nə tuhafdır bu günəş, baqdıqda
Gözlər ən kəskin işıqdan yorulur.
Ləkə varmış, – deyə Xəyyam onda
Yeni şeylər düşünür, doğrumudur?

İ k i n c i t ə l ə b ə

(həndəsi rəsm cızar)

Zevq alınmaz Günəşin seyrindən,
Gecə yıldızlara baqmaq daha xoş.

S a i b

(üçüncü tələbə)

Dün rəsədxanəyə varmışdım bən
Seyrə daldıqda olurdum sərxoş.

N a i b

(dördüncü tələbə əlindəki kitabları göstərir)

Bu cəbr, həndəsə, bilməm nə demək?
Uğraşan beynini incitmiş olur.
Cəbrə hər kim verəcək olsa əmək,
Sanırım nəfsinə cəbr etmiş olur.

S a i b

(kitabları Naibə verir)

Çoq yoruldunsa bıraq, bunlara baq,
İştə, ruh avlayacaq şeylər var.

N a i b

(alıb baqar)

İstəməm, bunlara yoq bəndə məraq,
Quru, boş fəlsəfələrdən nə çıqar?

S a i b

Biliriz, müftiyə naibsin, əvət,
Səni əyləndirəməz hər hikmət.

N a i b

Sən də Saibsin, inandıq, adına
Yaraşır fəlsəfə... Bir söylə bana.

(kitabları göstərir)

Nə imiş sanki Ərəstu, Sokrat?

S a i b

Yucadır hər biri bizdən bin qat.
Xəyyam qapı dalında dinlər.
İbn Sinaya qapılmış Xəyyam,
O da uymuş qoca yunanlılara;
Bizdə çoqdur sanırım fazil adam.
Qalmamış gizli həqiqət əsla.

X ə y y a m

(girər)

"Fəzli, irfanı tanınmış neçə dahi başlar,
Ürəfa bəzminə fanus olaraq parladılar.
Birər əfsanə deyib getdilər, əfsus, əfsus,
Bu qaranlıq gecədən çıqmağa yol bulmadılar".
"Kiminin fikrinə hakim görünür məzhəbü din,
Kiminin saplanaraq qaldığı həp şəkkü yəqin,
Ansızın bir də baqarsın ki, çıqar bir nadi,
Bağırır: Hey, nə odur yol, nə bu, qafil miskin!"

N a i b

(*yerindən qalqaraq qızğın)*

Dini təhqirə nə hacət, yetişir.

X ə y y a m

Bunca kəskin həyəcan yersizdir.

(Xəyyam arqadakı odaya keçər, Naib kitabları qoltuğuna vurar)

N a i b

Böylə boş sözlərə uymam, uymam,
Qılavuzdur bizə ancaq islam.

B i r i n c i t ə l ə b ə

(*onun qolundan tutaraq)*

Gəl, sinirlənmə, yetər.

İk i n c i t ə l ə b ə

Kəndinə gəl.

(*İç odada alçaqdan musiqi çalınar, içərini göstərib kinayəli)*

N a i b

Gedəlim, olmayalım ta əngəl,
Bəkliyor şimdi qədəhlərdə şərab,
Olacaq rəhbərimiz məstü xərab.

(Gedərlər)

Pərdə

II SƏHNƏ

Son dərəcə süslü və şairanə bir oda... Ortada ufaq və yuvarlaq masalar və sandalyalar. Ətrafda nimtaxtalar üzərində səccadələr, balışlar və döşəklər. Masa üzərində şərab dəstiləri, qədəhlər və məzələr, çini saqsılardakı dürlü çiçəklər gözlərə bədii zevq verir. Xəyyam ayaqda gəzinir. Saqiyə ötəbərini düzəldir. R ə m z i i l ə X ə r a b a t i iki çarşaflı gənc qadınlarla gəlirlər. Birinci – Vəfa Rəmzinin... ikinci – Səfa isə Xərabatinin sevgilisidirlər. Saqiyə çarşafları alıb bükər. Rəmzi ilə Xərabati əba ilə sarıqlarını bir tərəfə qoyar. Hər ikisinin saçı Xəyyamda olduğu kibi bir qədər uzadılmış.

X ə y y a m

Buyurun.

R ə m z i

Arzuladıq iştə səni.

X ə y y a m

Bu gəliş xeyli sevindirdi bəni.

V ə f a

Nerdə Sevda?

X ə y y a m

Oturun, şimdi gəlir.

S ə f a

Onu çoq özləmişiz, Tanrı bilir.

(yan odaya baqar)

Gəldi, baq, iştə şətarət çiçəyi.

V ə f a

O, əvət, könlümüzün şən diləyi.

S e v d a

(*gəlir, heyrət və sevinclə*)

Nə səadət, yenə yad etdi Vəfa,

Yenə xoş gəldi Səfa, gəldi vəfa.

Hər ikisi ilə öpüşür. Hər qadın öz sevgilisinin yanında oturar.

X ə r a b a t i

(*Xəyyama*)

Yenə yorğun kibisin?

X ə y y a m

İşlər çoq.

R ə m z i

Çoq üzülməkdə də bir mə'na yoq.

X ə y y a m

Gəldiniz, bir qadar aldım da soluq,
Silinib getdi bütün yorğunluq.

Saqiyə qədəhləri doldurub paylar. Xərabati çalınan neydən coşaraq.

X ə r a b a t i

İştə mey, Saqiyə, süzgün gözlər,
Daha bilməm ki, könüllər nə dilər?

R ə m z i

Söylə, cənnətdəki əfsanəli Kövsərmi gözəl?
Bu gözəl Saqiyənin sunduğu sağərmi gözəl?

X ə y y a m

"Toz olurkən bən əcəl pəncəsi altında yarın,
Çamurumdan içilən badəyə peymanə yapın.
Doldurur bəlkə o peymanəyə zevq əhli şərab,
Dirilib bən olurum bəlkə xərabatə yaqın".

X ə r a b a t i

İçəlim iştə, var olsun Sevda!

X ə y y a m

Yaşasın incə Vəfa, nazlı Səfa.

(İçərlər)

R ə m z i

Bizə bunlardır, əvət, türfə ənis.

X ə r a b a t i

Hiçdir, əlbəttə, qadınsız məclis.

X ə y y a m

Şən, gözəl bir qadın azadə gərək!
Əldə gül qönçəsi ya badə gərək.
Hanki məclisdə ki, yoq cinsi-lətif,
Nəş'ədən zevq alamaz bir arif.

S a q i y ə

(*gələr)*

Sizi görmək diləyir Xacə Nizam.

X ə y y a m

Pək gözəl.

S e v d a

(*Saqiyə ilə yan odaya keçərkən*)

Onlara lazım ikram.

(Xəyyam, Xacə Nizamla Sabbahı qarşılar. Sabbah şimdi vəzir qiyafətindədir)

X ə y y a m

Nə əcəb sizdən, əzizim, nə əcəb?
Böylə bir lütfə nə hal oldu səbəb?

X a c ə N i z a m

Səni görmək dilədik.

X ə y y a m

Var olunuz.
Kaş ki, hər gün bizə düşsün yolunuz.

S a b b a h

Səni hər gün belə görmək azdır.

X ə y y a m

Bu gəliş doğru saraydanmı?

X a c ə N i z a m
Xayır...
Cümədir, iştə məzarlıqda idik.
Qəbri-xaqanı ziyarət etdik.

(başını sallayır)

Sanki yoqmuş o, nə səs var, nə səda.

S a b b a h

(*Xəyyama)*

Səni hiç görmədik, əfsus, orada.

X ə y y a m

(gülərək)

Uğrarım bir dəfə ancaq, eyi bil,
O da rə'yimlə, məraqımla deyil.

X a c ə N i z a m

(Rəmzi ilə Xərabatini süzər)

Əski dostlarmı?

X ə y y a m

Əvət, hər ikisi

Qayğısız könlümüzün sevgilisi.

(qadınları tanıtır)

O Vəfa, Rəmziyə munis dildar,
Bu Səfa, rind Xərabatiyə yar.
Çiynədik yıpramış adətləri biz,
Böylə azadə ömür sürmədəyiz.

X a c ə N i z a m

Ya, demək, keçdimi bədbin əhval?

X ə y y a m

Başqadır şimdi, əvət, bəndəki hal,
Bən təzad elçisiyim, hər qayğı
Bana saçmaqda səadət işığı.

X a c ə N i z a m

Nerdə Sevda?

X ə y y a m

Baqınız gəldi.

S e v d a

(gələr)

Salam!

Bu gəliş bəncə umulmaz bayram.

X a c ə N i z a m

Keyfiniz?

S e v d a

Pək gözəl.

S a b b a h

(Xəyyamla Sevdayı göstərir)

Eşq olsun ona

Ki, yetişmiş bu səadət quşuna.

S e v d a

(Sabbahı süzüb yapma gülüşlə)

Yapma Xəyyam onu sevdirdi bana.

X ə y y a m

(*Sabbahı göstərir)*

Baisim bən də onun varlığına.

Saqiyə iki dolu büllur qədəh gətirir. Sevda birini Xacə Nizama, digərini Sabbaha verir.

S e v d a

Bu şərabdır, bu da gül şərbətidir.

(Sabbaha)

Sana şərbət daha çoq nəş'ə verir.

S a b b a h

Çoq təşəkkür.

(ətrafa)

Yenə kəskin tə'riz.

S e v d a

Bən eşitdim ki, sizin gözləriniz
Bir çoq insanlara tə'sir eylər.
Daldırıb uyquya təsxir eylər.

S a b b a h

Saçma sözlər.

(*ətrafa)*

Gərək ölsün bu qadın!

(*Qədəhləri qaldırırlar*)

X ə y y a m

Var olun!

X a c ə N i z a m

(*Xəyyama)*

Parlasın aləmdə adın!

S a b b a h

Onu parlatdı böyük Xacə Nizam!
Kimsə bilməzdi ki, varmış Xəyyam.

X ə r a b a t i

(Xəyyama)

Hakim olduqca yer üstündə şərab,
Anacaqdır səni hər rindi-xərab.

R ə m z i

Əski yunanda müqim olsaydın,
Nəş'ə mə'budu tanınmışdı adın.

X ə y y a m

"Ayıq olsam uçaraq nəş'ə, çökər ruha duman,
Sərxoş olduqda gəlir ağlıma az-çoq nöqsan.
İki halın arasından gülər ən xoş bir hal,
İştə, könlüm bayılır, zevq alır ancaq ondan".

İçərlər. Sevda lirik musiqi ilə bərabər bir parça oqur.

S e v d a

Badə gözəldir, məzə həp naz ola!
Saqiyə dilbaz ola, tənnaz ola!
Gül sarılıb bülbülə, bülbül gülə,
Ney coşaraq onlara dəmsaz ola!

V ə f a, S e v d a, S ə f a

(*hər üçü birlikdə)*

Güldü bahar, oldu çəmən laləzar,
Avladı hər aşiqi bir işvəkar.
Hər gözəlin başqa bir ilhamı var,
Xoşdur o afət ki, xoşavaz ola!

X ə r a b a t i

(*sərxoş bir ahənglə oquyub qadınları göstərir)*

Olmaya dünyada amansız cəfa,
Çıqmaya bir ləhzə könüldən Səfa,
Oqşaya hal əhlini Sevda, Vəfa,
Hər üçü həmbəzm ola, həmraz ola!

X ə y y a m

(qədəh qaldırar)

Əldə şəfəq dalğalı peymanələr,
Gülsə də xoşdur bizə divanələr.
Zahidin olsun quru əfsanələr,
Bəlkə o dünyada sərəfraz ola!

İçərlər. Bu sırada qara, gur saqallı bir sıra müridlər və xocalar içəri soqulurlar.

N a i b

(*onların arasında, Müftinin qulağına kinayəli*)

İştə, sevinc elçisi Xəyyam odur.

M ü f t i

(kinli)

Oh, nə səfalət, bu da bir yolmudur?

N a i b

(ətrafa)

Fürsət ikən tez savuşub getməli.

(Haman geri çəkilib aradan çıqar. Qadınlar tələşlə yan odaya keçərlər)

X o c a l a r

(coşğun)

Xaini məhv etməli, qəhr etməli!

M ü f t i

Hər kəsi yoldan çıqarıb sayğısız,
Dini də əyləncə sayar, qayğısız!

X a c ə N i z a m

Coşma əfəndim, bu nə? Səbr eyləyin,
Hanki yel əsmiş sizə bir söyləyin?

M ü f t i

(*Xəyyamı və qədəhləri göstərir*)

İştə, rəzalət yeli, bid'ət yeli,
Anlatınız kimdir o bilgic dəli?!
Sərxoş olub aləmi sərsəmlətir,
Anlayamam bən, şu səfahət nədir?

X ə y y a m

(gülər)

"Həzrəti-müfti, sizə nisbətlə biz,
Həm ayığız, həm deyiliz nəş'əsiz.
Biz içiriz badə, siz insan qanı,
Hankimiz, anlat, daha çoq vəhşiyiz?"

M ü f t i

Sus, bu cəsarət nə, bu tüğyan nədir?!
Kimlərə uydun da, bu isyan nədir?!

X ə y y a m

Şeyx rəis, iştə, o parlaq dəha
Bizlərə hikmətdə böyük rəhnüma.
İçsə o, bir suçmu bizim içməmiz,
Qorqusu yoq, sən də gəl iç, ey əziz!

M ü f t i

Sus bə, şaşırdınmı, köpək sərsəri,
Azma, düşün bir gələcək günləri.
Burda həqiqət sana aydın deyil,
Bəlkə qiyamətdə olursun xəcil!

X ə y y a m

Xilqətin əsrarını bilsən əgər,
Bəlkə ölümdən də bilirdin xəbər.
Bən sağ ikən anlamadım haq nədir,
Bir ölü, bilməm ki, nə duymaq dilər?

R ə m z i

(gülərək Müftini göstərir)

Azmı bilir bağçamızın bülbülü,
İştə, həqiqətlərə vaqif ölü!

M ü f t i

(çılğın)

Sən dəmi, ah, sən dəmi güldün bana,
Tanrı cəhənnəmdə verir yer sana.

X ə r a b a t i

(qorqulu, yapma təlaşla)

Öyləmi, ah, öyləmi?

M ü f t i

Ya, öylə ya!
Yoqdur aman haqtanımaz qullara!
Zift ilə zəqqum içəcəklər tamam.

X ə r a b a t i

Bən dəmi, ah! Bən dəmi? Lütf et, xocam.

(qədəhi yerə atar)

Tevbələr olsun, daha içməm, yetər,
Bən bilirim orda nələr var, nələr?..

(Ağlayaraq Müftinin ayaqlarına qapanar)

R ə m z i

Nerdə, cəhənnəmdəmi?

M ü f t i

Ya, öylə ya!

X ə r a b a t i

Dün gecə, ah, dalmış idim uyquya,
Bir də nə gördüm ki, yanar kainat,
Hər yanım atəş, bana yoqdur nicat.

(Hönkürtü ilə ağlar)

M ü f t i

Baq, hələ bu uyqu, həqiqət deyil,
Doğru cəhənnəm nə olur anla, bil!

X ə r a b a t i

Sardı bütün çevrəmi əqrəb, yılan,

(xocaları ayrı-ayrı süzərək)

Hər biri bir vəhşi öküzdən yaman.
Həpsi alav püskürüb, atəş saçar,
Onları div görsə uzaqdan qaçar.

M ü f t i

Söz yoq, azanlar bulacaqdır cəza.

X ə r a b a t i

Sonra haman gurladı bir əjdəha,
Ah... dilim-ağzım qurusun, söyləməm.

R ə m z i

Söylə, nədir?

X ə r a b a t i

Müftiyə bənzər desəm,
Çıldıracaq, saldıracaqdır bana.

M ü f t i

Sus, qəzəb etsin ulu Tanrım sana.

(xoca və müridlərə)

Oh, gedəlim, burda durulmaz daha,
Bunlara Xaliq verəcəkdir bəla!

X a c ə N i z a m

Son gediş olsun!..

M ü f t i

Daha gəlməm, xayır,
Duydum, əvət, haq sözü duymaz sağır.

(*Çıqarlar)*

X ə y y a m

(Xərabatiyə)

Müftini incitməməliydin, saqın,
Cənnətə əsla bizi qoymaz yaqın.

Q a d ı n l a r gəlir.

S e v d a

Ah, şu həriflər nə qadar sayğısız.

R ə m z i

(Xərabatini göstərir)

Onları susdurdu bizim qayğısız.

X ə y y a m

Versə də bayquşlar əgər səs-səsə,
Qayğı yaraşmaz bu gülər məclisə.

X a c ə N i z a m

Etməyiniz zərrə qadar e'tina!
Onların azğınlığı varmaz sona.
Saqiyə qədəhləri doldurur.

S e v d a

(çalınan lirik musiqi ilə bərabər oqur)

Durma, gülüm, Saqiyə! Sən badə ver,
Gözləri öpsün yenidən nəş'ələr.
Şairin ilhamı açıb balü pər
Yüksələ ta göylərə, pərvaz ola!

H ə r ü ç q a d ı n

Gülsə günəş, gülsə çəmən, laləzar,
Sanma könüllərdə şətarət doğar,
Arif odur gülsün içindən bahar,
Ta ona hər zümzümə bir saz ola!

Xərabati Sabbahın şərbət içdiyini görüncə Rəmziyə baqar.

X ə r a b a t i

Bəncə əbəsdir mey olan yerdə su,
Badə verir qəlbə səfa duyğusu.

(*barmaqlarını şaqlatır, gülərək)*

Eşq ola bir xalqa ki, haq yolçusu
Həzrəti-müfti kibi canbaz ola!

Dışarıda əskəri musiqi eşidilir. “Urra” səsləri ətrafı çınlatır.

X a c ə N i z a m

(tələş ilə içəri girən Hacibə)

Söylə, bu alqış nə?

H a c i b

Məlikşah gəlir.

Xacə Nizam Sabbahla bərabər qalqar, məclisdəkilər də onlarla bərabər qalqar

X a c ə N i z a m

Böylə xəbərsiz nə için?

S a b b a h

Kim bilir.

X a c ə N i z a m

Başqa siyasətmi, nədir? Anlamam!
Gəl baqalım, ta ola aydın məram.

S a b b a h

(Xəyyamın qolundan tutaraq)

Şairi alsaq eyi olmazmı ya?

X a c ə N i z a m

Zevqinə baqsın, gedəlim.

(*Çıqarlar)*

X ə y y a m

Öylə ya!..

Xacə bənim halımı rə'na bilir.

(Onları yola salır)

R ə m z i

(Xərabatiyə)

Keyfinə baq, sanki bu dünya nədir?
Məskəni olmuş ulu xaqanların,
Mədfənidir qorqulu sultanların.

X ə r a b a t i

(alaycı qəhqəhə ilə)

Dün qara topraqda uyurkən biri,
İştə bu gün taxta çıqar digəri.

X ə y y a m

(geri dönər)

Yoq işimiz şah ilə, sərdar ilə,
Xoş keçər ancaq günümüz yar ilə.
Gülsə Vəfa, işvəli Sevda, Səfa,
Biz gülərіz, batsa da şahlar yasa.
Birsə məzarında gəda, padşah,
Cami-Cəm olsun bizə ən son pənah!

Qədəhləri qaldırıb içərlər.

Pərdə

III SƏHNƏ

Sevda odasında geyinmiş olaraq taxtın üzərində uyumaqdadır. Aqşam mumlar yaqılmış. Sabbah Əbu Tahirlə bərabər avçı qiyafətində gəlirlər.

S a b b a h

(Sevdayı öylə göründə heyrətlə)

Çocuq xəyalı, mələk ruhu, bir mayıs səhəri
Təcəssüm eyləyərək,
Gülər o çöhrədə şən xilqətin o şah sehri,
Qadınmıdır gerçək.
Sevda qımıldanır.

Ə b u T a h i r

İştə az qaldı oyansın, gedəlim.

S a b b a h

Sən uzaqlaş.

(Əbu Tahir çəkilir)

S e v d a

(gözlərini ovaraq)

Kim o?

S a b b a h

Əfv et, gözəlim,
Ansızın böylə izinsiz girməm
Səni ürkütməsin əsla.

S e v d a

(qalqaraq ətrafa)

Sərsəm!..

S a b b a h

Nerdə Xəyyam, onu tez görməliyim,
Acı bir sirri xəbər verməliyim.

S e v d a

Evdə yoqdur, gələcək, söylə bana,
Hanki dəhşətlə gəlir qorqu sana?

S a b b a h

Öylə dəhşət ki, çəkilməz, ancaq
Çarə Xəyyam ilə səndən olacaq.

S e v d a

Nə imiş söylə?!

S a b b a h

Məlikşah gələli
Parlayıb bən onun oldum sağ əli.
Bunu gördükdə qızıb Xacə Nizam
Eyliyor qətlimə hər ləhzə qiyam.
Diyor, Alp Arslanı öldürmək için
Sən də Yusiflə şəriksin.

S e v d a

Lakin...
Bunu isbat edəcək əldə nə var?

S a b b a h

Xacə yoqdan belə yüz hiylə yapar.

S e v d a

İştə, bir şübhə ki, uydurma, yalan,
O deyil hiç də fəna bir insan.

Səni qurtardı ölümdən Xacə,
Yoqsa məhv etdirəcəkdim o gecə.

S a b b a h

Şimdi məhv et, daha məs'ud olurum,
Duyduğum hər acıdan qurtulurum.

(ətrafa)

Ah, o gözlər bəni öldürdü, yetər!

Dışarıdan əskəri musiqi eşidilir. Əbu Tahir tələşla içəri soqulur.

Ə b u T a h ir

Gəldilər, gizlənəlim.

S a b b a h

(Sevdaya)

Bir yer ver.

S e v d a

Keçiniz!

(Yan odayı göstərir)

S a b b a h

Yalnız ümidim sanadır.

Aradan çıqarlar.

S e v d a

(gələn Saqiyəyə)

Sən nə yapdın?

S a q i y ə

Nə dilərsin hazır.

Qarşıdakı pərdəyi bir yana çəkər. Çiçəkli yaşıl bağçanın döşənilmiş olduğu görülür. Süfrədə badə ibriqi yaxud dəsti-sürahi və boş qədəhlər, məzələr vardır. Ağaclardan fənərlər asılmış. Üfüqdə üçgecəlik ayla yıldızlar parlar. Xəyyam, Məlikşah və Xacə Nizam ilə bərabər gəlirlər. Xəyyamın saçı daranmış, saqalı bir az uzadılmışdır.

X ə y y a m

Buyurun.

(Sevdaya)

İştə, Məlikşah...

S e v d a

Əcəba,

Nerdə rast gəldiniz?

X ə y y a m

Əl'an yolda,
Baqdı ilk öncə rəsədxanəmizə,
Sonra lütf eylədi kaşanəmizə.

M ə l i k ş a h

(Sevdaya)

Halınız?

S e v d a

Siz var olun, çoq eyidir.

X a c ə N i z a m

(birdən köpürür)

Nə xəyanət o? Nə cür'ət?

M ə l i k ş a h

(onu sükuta də'vət edər)

Yetişir...

X ə y y a m

Yeni bir şeymi var?

X a c ə N i z a m

Azğın Sabbah
Şimdi avlaqda ikən biz, nagah
Pusaraq az qala qıymışdı bana.

X ə y y a m

Ehtimal, öylə görünmüş bu sana.

X a c ə N i z a m

Hər nə olmuşsa, bən etməm təhrif,
Son zamanlarda sapıtmış o hərif.
Yeri gəldikdə, inan, çıldıracaq,
O da Yusif kibi bütlər qıracaq,
Sanma yalnız bəni izlər, hətta
Qıyacaqdır o şərəfsiz sana da,
Bəsliyor gizli fədin çətəsi,
Qıyacaq hər kəsə ta var nəfəsi.
Onca ərkani-hökumət bir-bir
Yer üzündən silinib getməlidir.

M ə l i k ş a h

Baqarız, məhkəmə var, qanun var.

X a c ə N i z a m

Məhv edilməzsə o nankör canavar...

M ə l i k ş a h

(onun sözünü kəsərək)

Dur, bir az dinləyəlim şairi biz.

X ə y y a m

Ərzi-şükranə yetişməz dilimiz.

M ə l i k ş a h

Gəlməz oldun bu yaqınlarda bana.

S e v d a

Çoq zaman dostları həsrətdir ona.

X ə y y a m

Son zamanlarda başım pək qarışıq.

S e v d a

(kinayəli gülümsəyişlə)

Arayır çünki qaranlıqda işıq.
Saqiyə qədəhlərə şərab doldurur.

X ə y y a m

Buyurun, seçmə şərab.

M ə l i k ş a h

Siz içiniz.

X ə y y a m

Ya siz?

M ə l i k ş a h

Avlaqda ikən içdik biz.

(Saqiyəyə)

Bir qədəh, varsa, limon şərbəti ver.

X ə y y a m

(yalnız içərək)

Var olun!..

M ə l i k ş a h

Nuş ola! Bilsən nə qadar

Özlədim şairi Bağdadda ikən.

X ə y y a m

Orda xoşdur yaşayış gerçəkdən.

M ə l i k ş a h

Səni sıqmazmı Nişabur, əcəba?
Səfər et, baq nə genişdir dünya...
Çoq olur feyzi xəyal aləminə,
Gedəlim bizlə Hicazə, Yəmənə,
Dəclə sahilləri bilsən nə gözəl,
Hələ məhtabı gözəldən də gözəl.
Bir rəsədxanə yaparsın orada,
Sanırım hiç sözün olmaz burada.

X a c ə N i z a m

Sizi rədd etməz, əminim.

M ə l i k ş a h

Nə tuhaf...
Görünür, müftidə yoqmuş insaf.
Söylüyor, hər şeyi atmış Xəyyam,
Olmuş ən sərxoş, uğursuz bir adam.

X ə y y a m

Doğru, var içkiyə az-çoq meylim,
Söylənənlər kibi düşkün deyilim.
Çoq zaman özlədiyim neylə şərab
Fikri təbliğ için ahəngi-rübab.
Edərim əski xurafata hücum,
Yeni bir fəlsəfə izlər ruhum.
Xalqı gördükcə səfalətdə həmən
Içərək vaz keçərim kəndimdən.
Içərim həp sevərək, sevməyərək,
Uğramaz fikrimə keçmiş, gələcək.
Avutur könlümü ancaq Sevda,
Versə yalnız o verir ruha qida.
Musiqi... Sevda Xəyyama cavab olaraq bir parça oqur.

S e v d a

“Bilməz yarının sirrini bir kimsə cihanda,
Baq zevqinə tale sana yar olduğu anda.
Məhtabə çıqıb könlünü şad eylə ki, bir gün
Özlər də qəmər bizləri, bulmaz şu məkanda”.

(Həsrətli baqışla yeni doğmuş ayı göstərir)

M ə l i k ş a h

Söylə bir parça da, lütfən, nə olur?

X ə y y a m

Söylə, gəlsin bana eşqinlə qürur.

S e v d a

(*oqur*)

“Bir gün dedi gül bülbülə: bən böylə gözəlkən
Zevq almada hər kəs nə için əşki-tərimdən?
Bülbül dedi: dünyada o kimdir gülə bir gün,
Yıllarca zəbun etməyə şən könlünü şivən!”
Bu sırada ağaclar arasında bir bülbül ötər.

M ə l i k ş a h

İştə, bülbülləri inlətdi səsin.

X a c ə N i z a m

Sözlərindən yenə Sevda bədbin.

S e v d a

Söylənən şe’ri yaratmış Xəyyam,
Könlüm ancaq alır ondan ilham.

Saqiyə şərbət gətirir. Təpsini qapı yanında iskəmlə üzərində qoyub içəri girər, bir qədəh daha gətirər. Sabbah qapı arasında görünür, Xacə Nizamın qədəhinə zəhər qatar. Geri dönən Saqiyəyə

S a b b a h

Bu qədəh, söylə, kimindir əcəba?

S a q i y ə

Baş vəzirin... Niyə sordun?

S a b b a h

Olur a...

(Şübhəli baqışla uzaqlaşan Saqiyəni süzüb yanında duran Əbu Tahirə)

Dur, bizim Xacə bulur şimdi cəza.

Ə b u T a h i r

(şaşqın)

Nə imiş?

S a b b a h

Sonra duyarsın, sonra...

X a c ə N i z a m

(qədəhi alar)

Buzlu şərbətmi? Xayır, bən içəməm.

S e v d a

(onunkunu alıb önündəki qədəhi ona verir)

Bunda buz yoq, alınız.
Onlar şərbət, Xəyyam şərab içər.

S a b b a h

(*Sevdaya işarətlə*)

Vay, sərsəm!..
Şimdi bir anda o gül yüz solacaq,
Solacaq, inləyərək məhv olacaq.

Ə b u T a h i r

Niçin, anlat?

S a b b a h

Var o şərbətdə zəhir.

Ə b u T a h i r

Ona qıymaqmı olur?

S a b b a h

Fərqi nədir?!
Bəni öldürdü onun işvələri,
O da olsun, bəri gəl, haydı bəri.

Çəkilib gedərlər, bu sırada yerdəki dəsti bir tərəfə yuvarlanıb qırılır. Xəyyam acı gülümsəyişlə göyə doğru.

X ə y y a m

“Badə ibriqimi qırdın, ya Rəb!
Dərdimi başdan aşırdın, ya Rəb!
Bən mey içdimsə, əcaib bir hal,
Məst olub sənmi şaşırdın, ya Rəb”.

M ə l i k ş a h

(*Sevdaya*)

Dinləmək istiyoruz bir də səni.
Sevda ağır hallar keçirir, qədəhi alıb yoqlar.

S e v d a

Bu qədəh, iştə, xərab etdi bəni,
Gəmirir köksümü binlərcə böcək
Həpsi atəşli zəhər püskürəcək...
Xəyyam Sevdanın başının əllərinə alır.

X ə y y a m

Ah, nədən söndü səadət günəşi.

X a c ə N i z a m

(ətrafa)

Bən əminim, bu da Sabbahın işi.

X ə y y a m

Nazlı Sevda! Sana kim qıydı, gülüm?
İlk baharında nə layiq bu ölüm?
Söylə, ey sevgili, eşsiz diləyim.
Kim zəhər qatdı gülər ömrünə, kim?!

(Ağlar)

S a q i y ə

Onlar... onlar...

X a c ə N i z a m

(*təlaşla)*

Nə dedin?

S a q i y ə

Ah, onlar...

(Yan odayı göstərirkən zəlzələ başlar, Saqiyə yıqılır, bağça kənarında görünən çardağın bir qismi parçalanıb düşər)

M ə l i k ş a h

Bu nə dəhşət, köpürür tufanlar?!

(*Ətrafda qarğaşalıq və cığlıq qopar)*

X a c ə N i z a m

İştə hər yanda böyük vəlvələ var.

Q o m ş u q ı z l a r

(bağçada qaçışaraq)

Ah, aman zəlzələ var, zəlzələ var.
Son sözlər təkrar olur, məclisə pərişanlıq gəlir.

X ə y y a m

(kinli və acı fəryadla cənazəyə)

Qalq, oyan!.. Ah, niyə susdun, gözəlim?!
Həp təbiət, bəşəriyyət zalim...
Söylə, kimdən diləyim bən imdad?..
Həp təbiət, bəşəriyyət cəllad!..

Pərdə

BEŞİNCİ PƏRDƏ

I SƏHNƏ

Məzarlıq... İmamzadə günbədi... Onun yanında namaz qılınmağa məxsus bir oda. Ətrafda məzarlar, yeşil bir çinarla iki-üç sərv ağacı. Ötədə-bəridə vəhşi güllər. Daha iləridə yaşıl bir təpəcik. Buludlu səhər, uzaqdan həzin-həzin çoban düdüyü çalınır. İki məzarçı məzar qazımaqla məşğuldur. Birincisi – ixtiyar, ikincisi – gəncdir. Birinci məzarçı qalın səslə oqur.

B i r i n c i m ə z a r ç ı

Biri ölməzsə dirilməz birisi,
Hiçdir ömrün sonu yaxud gerisi.
Olsa qurnaz nə qadar bir tilki,
Boğazından çıqacaqdır dərisi.

(topraqdan çıqardığı qafa tasını süzərək bir yana atar)

İ k i n c i m ə z a r ç ı

(bəzəkli bir məzarı birinci məzarçıya göstərərək)

Bu qəbir, söylə kimindir, əcəba?

B i r i n c i m ə z a r ç ı

Bu hərif varlı bir axmaqdı, xəsis,
Nazlı bir yosmaya olmuşdu ənis.
Yetişib var-yoqu oynaq qadına,
Yedirir hər gecə oynaşlarına.

(İkinci məzarçı qazdığı məzardan bir əyri sümük çıqarıb gülərək)

İ k i n c i m ə z a r ç ı

Bu çürük qozbelə baq bir, bu bunaq
Topraq altında da qozdur, sarsaq.

(Yandakı çuqura atır)

B i r i n c i m ə z a r ç ı

Qomşumuzdur, o da bir rəngə girən,
Daima söz götürüb, söz gətirən
Bir uğursuz ki, bu gün susmuşdur.

İ k i n c i m ə z a r ç ı

(ətrafa baqaraq)

Kimdir onlar?

B i r i n c i m ə z a r ç ı

İki qızğın mə'mur.
İki əskəri mə'mur tələş içində gəlir.

İ k i n c i m ə’ m u r

Bana baq! Ey!..

B i r i n c i m ə z a r ç ı

Nə imiş? Əmr ediniz!

B i r i n c i m ə’ m u r

Söylə, Sabbahı, Əbu Tahiri siz
Burda görmüşmüsünüz?

B i r i n c i m ə z a r ç ı

Yoq, əsla!

B i r i n c i m ə’ m u r

(arqadaşına İmamzadə ilə namazgahı göstərir)

Haydı, sən durma, bu ətrafı ara.

(*məzarçılara)*

Öylə xainləri kim saqlarsa,
Görəcək ən qaba, dəhşətli cəza.

İ k i n c i m ə z a r ç ı

Onların məskənidir şimdi məzar.

B i r i n c i m ə’ m u r

Nə məzar? Hanki məzar?

B i r i n c i m ə z a r ç ı

(ikinci məzarçının ətəyindən çəkərək)

Sus, murdar!..
Sana əyləncəmi bir cəngavər.

(*ətrafda yeni suvanmış məzarı mə'mura göstərir*)

Baqınız, burda gömülmüş ölülər.

B i r i n c i m ə' m u r

Kimə lazım ölülər, heyvana baq?!

İk i n c i m ə' m u r

(gəlir)

Kimsələr yoq.

B i r i n c i m ə' m u r

Gedəlim.

(iki-üç adım gedər, təkrar dönərək)

Ey bana baq!..
Yoq o xainlər için qurtulacaq.
Kim tutub versə, mükafat alacaq.
Az deyil, iştə yüz altın... Düşünün,
Bunca sərvət ələ düşməz hər gün.

(Gedərlər)

İk i n c i m ə z a r ç ı

Böylə fürsət ələ keçməz gerçək.

B i r i n c i m ə z a r ç ı

(onun başına bir yumruq vurur)

Sən öküzsün, buna yoq bir deyəcək,
Bizə altınmı verirlər? Şaşqın!
Dağılıb cinləri xaqanımızın
Yenə Sabbahı bağışlar er-gec,
O zaman sən yaşamaqdan vaz keç.

S a b b a h

(Əbu Tahirlə arqadakı boş məzardan)

Kimdir onlar?

B i r i n c i m ə z a r ç ı

İki azğın mə'mur...

S a b b a h

Nə diyor?

B i r i n c i m ə z a r ç ı

Sizləri izlər də durur,
Söylüyor, onlara yoq qurtulacaq.

İ k i n c i m ə z a r ç ı

Görsələr məhv edəcəklər.

Ə b u T a h i r

Sarsaq...

S a b b a h

(hər birinə ikişər altın verər)

Al, saqın, kimsəyə bildirmə bizi.

B i r i n c i m ə z a r ç ı

Bu nə mümkün... Bilirik həddimizi.

Ə b u T a h i r

Gedəlim.

(Uzaqlaşırlar)

S a b b a h

Gəl, buradan qurtulsam,
Bəni haqqilə tanır Xacə Nizam.

B i r i n c i m ə z a r ç ı

(qafasını sallayaraq oqur)

Biri izlər, biri dəhşətlə qaçar,
Biri dovşan, biri qızmış canavar.
Üç qarış topraq ikən son yatağın,
Bu didişmək nəyə lazım bu qadar.

Pərişan qiyafətli, başı açıq, saçları dağınıq, yarım sərxoş,
əlində bir dəsti – X ə r a b a t i onlara yaqlaşır.

İk i n c i m ə z a r ç ı

İştə, bir səndələyən canlı məzar,
Hər gün etməkdə bizim səmtə güzar.
Qaldırıb dün o şərab dəstisini,
Sayğısız az qala vurmuşdu bəni.

B i r i n c i m ə z a r ç ı

Saqın, əsla ilişib durma, qızar,
Onda çılğınlığa bənzər hal var.

(Çalışırlar)

X ə r a b a t i

(yeni məzarlara yaqlaşır)

İştə Rəmzi, bu da biçarə Vəfa,
İştə Sevda, bu da nazəndə Səfa.
Beş gün əvvəl gülüşürkən xoşkam,
Susdular zəlzələdən bir aqşam.

(*hər məzar üzərinə bir avuc şərab sərpər)*

Bu sənin, baq, bu sənin, al, bu sənin,
Bu da Xəyyamın əməl qönçəsinin.

(bir avuc da ətrafdakı məzarlara sərpər)

Sizin olsun bu da, ey əhli-qübur!
Abi-Kövsər denilən badə budur!

(Bir qədər də özü içər)

İ k i n c i m ə z a r ç ı

Yenə sərxoşdur o, pozmuş qafayı.

B i r i n c i m ə z a r ç ı

Durma, qaç, gəldi cənazə alayı.

M ü f t i m ü r i d l ə r i l ə gəlir. Bir yanda durub Xərabatini dinlər. Cənazəyi namazgaha gətirirlər. Xərabati avcunu şərabla doldurub göyə doğru sərpər, alaycı qəhqəhə ilə.

X ə r a b a t i

Bu da göylərdə gülən sultanatın,
Sən də iç, bəlkə açılsın qanatın.
Uç fəzalarda, yorulsan bizə gəl,
Evdə küplər dolu, yoq bir əngəl.
Gəl, bərabər içəlim, nəş'əyə dal,
Verməsin könlünə hər qayğı məlal.
Sərxoş ol, bunca ağır faciələr
Səni ürkütməsin əsla!.. Desələr
Çökdü evlər, qırılıb ailələr,
Sən haman zevqinə baq, etmə kədər.

M ü f t i

(kinli və sinirli)

Sus, yetər, sus, bu nə yersiz həzyan.

X ə r a b a t i

(dəstiyi Müftiyə uzadır)

Al bir az sən də iç.

M ü f t i

(*əsa ilə vurur)*

Azğın heyvan!

(camaata)

Qətli vacibdir, o tüğyan eylər,
Çıldırıb Tanrıya isyan eylər.

N a i b

Küfr edib dursa, əvət, məl'unlar,
Yağacaq zəlzələlər, taunlar.

M ü f t i

Böylə mürtəddi yaşatmaq yaramaz.

N a i b

Vurun ölsün!
Xərabatinin boğazını yaqalar.

X ə r a b a t i

Bıraq!..

C a m a a t

Alçaq, haylaz!

(Vurub yandakı uçuruma düşürərlər)

N a i b

(yerdən bir daş alıb atar)

İştə al!

C a m a a t

Sus da, gəbər!

M ü f t i

Oh, miskin!
Bu da az böylə ədəbsizlər için.

Namazgaha keçərlər, içəridə "Allahu əkbər" səsi yüksəlir.

B i r i n c i m ə z a r ç ı

(arqadaşına)

Haydı, gəl, gəl bəri, başlandı namaz.

İk i n c i m ə z a r ç ı

Gedəlim, feyz alalım biz də bir az.

Əldəki qazmaları bıraqıb onları izlərlər. Xəyyam dalğın bir halda Saiblə bərabər gəlir. Sevdanın mərmər daşlı məzarı qarşısında durur. Saib saqsıdakı yeni açmış "həmişəbahar"ı məzar üzərinə qoyub geri çəkilir.

X ə y y a m

(ətrafı süzərək)

İştə, ən sevgili şən dostlarımız
Qara topraqda uyur yapyalınız.
Gülməz artıq o gülümsər yüzlər,
Bizə küskündür o munis gözlər.
Hanı Sevda, o bənim göz bəbəyim?
O bənim sevdiciyim, şən çiçəyim?

(fidandakı qönçələri oqşayaraq)

O yetişdirdi bu tər qönçələri,
Bunlar olmuş onun əyləncələri,
Bu çiçək solsa da bir gün güləcək,
Nazlı Sevdaya nə mümkün gələcək?!
Uyuyub qaldı, onun həsrəti çoq,
Bu amansız gecənin gündüzü yoq!
Parlayıb söndü qaranlıqlarda,
Bir xəyal oldu, nə səs var, nə səda.

S a i b

Pək gecikdik, gedəlim.

X ə y y a m

Azca dayan.

S a i b

Sizi üzməkdə təəssür, həyəcan.

X ə y y a m

Bəni üzmüşsə təəssür, həyəcan,
Onu didməkdə məzarında çiyan.

(göz yaşını silərək)

Bana göz yaşları işgəncə verir,
Onu əqrəb və yılanlar gəmirir.
Bəni boğmaqda qaranlıq bir hal...
Gəmirir beynimi bin dürlü xəyal.
Qaradır gördüyüm əlvan əşya...
Qara yer-göy, qaradır rəngi-ziya.
Of, qaranlıq şu bəyaz mərmər də,
Nazlı, məqbərdə yatan dilbər də.

(göyə baqaraq)

Yaslı gəlməkdə bulutlar da bana,
Bənziyor sevgilimin saçlarına.
Baq, günəş daldı qaranlıqlarda,
Sanki məqbərdə gülümsər Sevda.
O fəzalar belə müzlim pərdə,
Bir ədəm dalğası var hər yerdə.
Həp qaranlıqdır, əvət, sirri-həyat.
Qoca Xaliq də qaranlıq, heyhat!..

Düşüncəyə dalar. Müfti yanındakılarla çıqar, dinlər.

M ü f t i

İştə, Xəyyam, o sapıtmış insan,
Püskürür göylərə nifrət, isyan.

N a i b

O da ölsünmü?

M ü f t i

Xayır, şimdi xayır...
Öncə Bağdad ilə uzlaşmalıdır.
Az deyil çünki tərəfdarı onun,
Həm Məlikşah ona az-çoq məftun.

N a i b

Böylə fürsət bulunur sanma, xocam.

M ü f t i

Dur, gələn vardır.

N a i b

(dönüb baqar)

Əvət, Xacə Nizam.

Uzaqda karvan çanları səslənir, bir taqım hökumət ərkanı ilə Xacə Nizam yaqlaşırlar.

X a c ə N i z a m

İştə Xəyyam, o xəzandidə bahar...

X ə y y a m

Çoq gecikdimmi?

X a c ə N i z a m

Əvət, şübhəmi var?
Bəkliyor çünki Məlikşah, əl'an,
Yola düşməkdə Hicazə karvan.

X ə y y a m

Gedəlim, bəncə bu təbdili-həva
Verəməz könlümə bir zərrə səfa.

(gələnlərin arasında Saqiyə də bulunur)

Əcəba sən niyə gəldin, çiçəyim?

S a q i y ə

Gəlmişim bən də bərabər gedəyim.

X ə y y a m

Yol uzaqdır, üzülürsün, yavrum.

S a q i y ə

Etməyin söhbətinizdən məhrum.

X ə y y a m

Evə dön, qayğıya yol vermə yenə,
Munis ol bağçamızın güllərinə.

Oqşa ən sevgili həmşirə kibi,
Yaşar onlarda da Sevda qəlbi.
Gözü yaşlar dolu hər tazə çiçək
Səni, yoq şübhə, salamlar gülərək.
Seç, bəyən hansına etdinsə məraq,
Hər səhər incə dəmətlər yaparaq,
Bu yatan sevgili nakama gətir,
Söylə, öksüzlərinin töhfəsidir.

S a q i y ə

Öksüzüm bən də, qırılmış qanatım,
Getmə mümkünsə.

(Ağlar)

X ə y y a m

Aman, evladım!
Gözlərindən saçılan incilərin
Qalacaq izləri qəlbimdə dərin.
Ətrafda coşğun musiqi

X a c ə N i z a m

İştə, xaqan yola çıqmış, gedəlim.

X ə y y a m

(Saqiyənin alnından öpər)

Əlvida... Ağlama, yavrum, gözəlim!..

(Uzaqlaşırlar)

Pərdə

II SƏHNƏ

Bağdadda xəlifə Müqtədibillah sarayında bir salon. Birinci qulam nevbət bəklər.
Əbu Şüca dalğın bir halda düşünər.

İ k i n c i q u l a m

(girib əyilər)

Gəlmək istər hüzurə bir müfti.

Ə b u Ş ü c a

Söylə gəlsin.

İ k i n c i q u l a m

(qapıya)

Buyurun!

Ə b u Ş ü c a

(*birinci qulama*)

Çəkil, haydi!..

M ü f t i

(*girər)*

Əssəlamün əleyk, seyyidina.

Ə b u Ş ü c a

Və əleyküm səlam.

M ü f t i

(heyrətlə)

Söyləyin,
Əcəba siz Əbu Şücamısınız?

Ə b u Ş ü c a

(*Müftini qucaqlar)*

Əski bir dost, əvət, şaşırmayınız,
Baş vəzirəm bu gün xəlifəyə bən.
Söylə nerdən xatırladın bizi sən?

M ü f t i

Olmasaydı o yolsuzun dərdi,
Bəni Bağdadə kim sürüklərdi?..

Ə b u Ş ü c a

Söylə kimdir o?

M ü f t i

Sayğısız Xəyyam,
Onu hiçdən şımartdı Xacə Nizam.

Ə b u Ş ü c a

O, Hicazdan dönüb, keçən aqşam
Vardı Bağdadə, görüb çoq ikram.

M ü f t i

İki gün sonra, şübhəsiz gənclik
Olacaqdır onunla küfrə şərik.
Gəlmişim bən fəqət şikayət için,
Həbsə layiqdir öylə bir xain.
Dışarıdan gurultu və salavat səsləri gəlir.

Ə b u Ş ü c a

İştə, baq, gəldi şanlı rəhbərimiz,
Hiç məraq etmə, sonra dilləşiriz.

Musiqi... X ə l i f ə M ü q t ə d i b i l l a h Mə l i k ş a h l a bərabər gəlir. Ərəb şeyxləri və Məlikşahın saray ərkanı onları izlər. Sabbah ilə Əbu Tahir də qiyafətlərini dəyişdirmiş olduqları halda arqa sırada görünürlər.

X ə l i f ə

(camaata)

Əyyuhənnas! Xaliqil-əqvam
Bəni qılmış xəlifətül-islam.

(əlini köksünə qoyar)

Rəhbər olduqca Müqtədibillah,
Sanmayın bir nəfər qalar gümrah.
Qavuşub haqqa getdi Alp Arslan,
Bizə yardımçıdır böyük xaqan.

(Məlikşahı göstərir)

O, xilafət lehində çarpışaraq
Qeysəri-Rumi əzdi pək parlaq.
Xəyyam gəlib yanda dinlər.

M ə l i k ş a h

(xəlifəyə cəvabən)

Daima bən xilafət uğrunda
Hazırım cəngə...

X ə y y a m

(ətrafa)

Ən çocuqca xəta.

X ə l i f ə

(*əlləri yuqarıda, Məlikşahçin dua edər)*

Xaliqi-ləmyəzəl, böyük mə'bud.

C a m a a t

Amin!

X ə l i f ə

Ulu xaqanı eyləsin məs’ud.

C a m a a t

Amin!

X ə l i f ə

Tul ömr eyləsin kəramət ona.

C a m a a t

Amin!

X ə l i f ə

Varsın iqbalı, ehtişamı sona.

C a m a a t

Amin!

Yeşlı bir ərəb də “amin”də iştirak edər, gülünc və tuhaf səsi mə’lum olur.

X ə l i f ə

Kamiyab etsin əhli-imanı.

C a m a a t

Amin!

X ə l i f ə

Əhli-Turanı, əhli-Iranı.

C a m a a t

Amin!

X ə l i f ə

Bizi altın-gümüşlə ansınlar.

C a m a a t

Amin!

X ə l i f ə

Dini-islamə arqalansınlar.

C a m a a t

Amin!

(Dua bitər, hər kəs əlini endirir)

X ə l i f ə

(*Məlikşaha)*

Ərəbistana bəzl edin sərvət,
Sizə Xaliq nəsib edər cənnət.

X ə y y a m

(yanındakı yavərə)

Nəqdi ver, nisyə al, nə abdallıq.

Y a v ə r

Dur, yetər.

X ə y y a m

Ah, yazıq, bu xalqa yazıq.

X ə l i f ə

(yenidən coşaraq)

Orda, cənnətdə başqa aləm var,
Nazlı hurilər oynaşıb da coşar.
Zümrüd, elmas qədəhdə sizlər için
Ən nəfis içkilər sunar...

B ə d ə v i ə r ə b

(*versiz sevinclə*)

Amin!

X ə l i f ə

Əvət, onlar, o incə afətlər
Sizi vurğun baqışlarilə süzər.

B ə d ə v i ə r ə b

(heyrətlə)

Allah... Allah...

X ə l i f ə

Mələklər oynaşaraq,
Sizə gülbusələr verir coşaraq.

B ə d ə v i ə r ə b

Nə səadət!

X ə y y a m

(ətrafa)

Nə tatlı mevhumat!..

B ə d ə v i ə r ə b

Bana qismət olurmu öylə həyat?

X ə l i f ə

Niçin olmaz?

B ə d ə v i ə r ə b

Yaşım bir az keçgin.

X ə l i f ə

Yenidən gəncləşirsin.

B ə d ə v i ə r ə b

(*dərin sevinclə)*

Ah, amin!..

X ə l i f ə

Gənclik, əlbəttə, başqa ne'mətdir.

B ə d ə v i ə r ə b

Ən umulmaz böyük səadətdir.

X ə l i f ə

(*Xəyyama baqar)*

Yeni bir şəxsə bənziyor o adam.

M ə l i k ş a h

Öylə ya! Işdə, möhtərəm Xəyyam.
Həccə getmişdi...

X ə l i f ə

Pək gözəl, əcəba
Yeni şeylər nə gördünüz orada?

X ə y y a m

(*mə'nalı ahənglə)*

Dəvələr... Oynaşıb qoşan dəvələr...
Dəvələr... Sadə hoplaşan dəvələr...
Dəvələr... Cift ayaqlı mərkəblər...

M ü f t i

Susdurun, gör nə saçmalar söylər.

X ə l i f ə

Bəlli, Xəyyamın e'tiqadında
Şübhələr yoq deyil...

M ə l i k ş a h

Əvət, onda...
Son zamanlar acıqlı bir hal var.
Titiz olmuş da, hər nə görsə qızar...
Bu səyahət də bir bəhanə idi,
Unutulsun dedik bir az dərdi,
Bil'əkis yapdı pək fəna tə'sir.

M ü f t i

O sapıtmış...

M ə l i k ş a h

(bağırır)

Saqın, yetər təhqir!
Hər sözün bir məqamı var.

M ü f t i

Nə məqam?!

X ə l i f ə

(yumşaq və qurnazca)

Bəlli, yoq yer yüzündə suçsuz adam.

M ə l i k ş a h

(əlini bögrünə qoyar)

Ah, aman, doğranıb durur cigərim...

X ə l i f ə

Bir səbəbsiz deyil, bu, zənn edərim.

M ə l i k ş a h

Soyuq aldım keçən gün avda ikən.

X ə l i f ə

(*qulama)*

Baş təbib nerdə? Durma, söylə həmən.

(*camaata)*

Toplayın siz də xalqı camidə,
Yalvarın haqqa, bəlkə yardım edə.
Eylərim bən də şimdi razi-niyaz,
Onda bir zərrə xastalıq qalmaz.

M ə l i k ş a h

(əlini köksünə qoyar)

Gedəlim, çırpınıb durur qəlbim.
Əbu Şüca və yavərlər yardım edib aparırlar.

X ə l i f ə

Sana versin şəfa böyük Rəbbim.

Camaat məhzun və pərişan ahənglə “amin” deyə məclisi tərk edirlər. Xəlifə yan odaya keçər. Birinci qulam da bərabər çıqar. Sabbah ilə Əbu Tahir də bir guşədə saqlanır.

S a b b a h

O sönər şimdi, qaldı Xacə Nizam.

Ə b u T a h i r

Sağ bıraqmam, onun da ömrü tamam.

B i r i n c i q u l a m

(geri dönüb onları görüncə)

Bana baq, ey!

Ə b u T a h i r

(*qulamı arqadan yaqalar*)

Saqın, qımıldanma, dur!

B i r i n c i q u l a m

Sən də kimsin?

Ə b u T a h i r

(xəncərini onun köksünə dayayır)

Cavabın iştə budur!

B i r i n c i q u l a m

Coşma! Aciz qulun günahı nədir?

Ə b u T a h i r

Eyi baq, bən kimim?

B i r i n c i q u l a m

(sevinclə)

Əbu Tahir.

Ə b u T a h i r

Tanıdın? Afərin!..

(Bir-birinin əllərini sıqarlar)

B i r i n c i q u l a m

(Sabbahı göstərir)

O kim?

Ə b u T a h i r

Yoldaş...

B i r i n c i q u l a m

Gedəlim, istirahət eylə...

Ə b u T a h i r

Yavaş,
Bana anlat ki, nerdə Xacə Nizam?

B i r i n c i q u l a m

Biləməm.

Ə b u T a h i r

Bir baqın nə qafil adam.

(Sabbahı qulama göstərir)

O, Məlikşaha qarşı pək küskün,
Bəlkə, uzlaşdırır xəlifə bu gün?

B i r i n c i q u l a m

Vaqtı yoqdur xəlifənin əsla,
Eyliyor şanlı padşaha dua.
Bu sırada pərdə arqasında lirik musiqi çalınır.

S a b b a h

Nə gözəl musiqi... Fəqət, əcəba
Hiç görülmüşmü musiqilə dua?

Ə b u T a h i r

Burda, baq, pərdə arqasında.

(Pərdəyi açmaq istər, qulam bıraqmaz)

B i r i n c i q u l a m

Aman!
Bizi məhv etdirir xəlifə, inan.

Ə b u T a h i r

Əski dostuz, bıraq da seyr edəlim,
Sən bilirsin ki, boşboğaz deyilim.

B i r i n c i q u l a m

Söz verin, hər nə görsəniz, ancaq
Qalacaq qəlbinizdə, sirr olaraq.

Ə b u T a h i r

Aç! Çocuq sanma həmvilayətini.

B i r i n c i q u l a m

İştə, seyr et xəlifə cənnətini...

Birinci qulam pərdəyi açar. Səhnənin işığı çəkilir, bağça görünür. Xəlifə çiçəkli bağçada, fəvvarəli bir havuz kənarında zevq aləminə dalmış, yarımçıplaq qızlar rəqs edər, onu əyləndirirlər.

S a b b a h

Nə rəzalət... Bu bir ibadətmi?
Nə səfalət... Bu bir xilafətmi?

Ə b u T a h i r

(*kinayəli)*

Buna baq, zevqə baq, şətarətə baq!..

B i r i n c i q u l a m

Haydı, rədd ol!

(Pərdəyi qapamaq istər)

Ə b u T a h i r

Aman, bir az da bıraq...

B i r i n c i q u l a m

Hiç zərər yoq, doyunca baq, lakin
Saçma sözlər niçin? Lətifə niçin?

Ə b u T a h i r

Nə olur? Bilmədik.

B i r i n c i q u l a m

Bu hiç yaramaz...

S ab b a h

Bana, lütfən, bir az su.

B i r i n c i q u l a m

Bəklə bir az.
Yan odaya keçər. Qızlar rəqs edir və şərqi oqurlar.

Q ı z l a r

Uçaraq hər tərəfdə bir kələbək,
Yanaşır ən sevimli bir çiçəyə.
Öpüb oqşar, əmib doyar, gülərək,
Qapılır sonra başqa bir diləyə.
Bana gəl, uçma, dur, gözüm kələbək,
Sana var gizli bir sözüm kələbək.
Al çilənmiş qanatlarında sənin,
Rəngi solmuş çiçəklərin qanı var.

Üzmə şən bir həyatı sevgin için,
Şübhəsiz onların da bir canı var.
Bana gəl, qaçma, dur, gözüm kələbək,
Səni incitməsin sözüm, kələbək.

Əbu Tahir qapıya baqaraq pərdəyi qapar. Səhnə bir az aydınlaşır.

Ə b u T a h i r

Dur, gələn var.

S a b b a h

Əvət o... Xacə Nizam.

Ə b u T a h i r

Sən çəkil!

S a b b a h

Pək gözəl.

(Yan odaya keçər)

Ə b u T a h i r

(*ətrafa)*

Gəl, iştə tamam.

X a c ə N i z a m gəlir.

Ə b u T a h i r

(ona yaqlaşaraq yalvarıcı baqışla)

Möhtərəm Xacə! Bizdən olsa xəta,
Sizdən əlbəttə, əskik olmaz əta.

X a c ə N i z a m

Söylə, kimsin?

Ə b u T a h i r

Qulun – Əbu Tahir.

X a c ə N i z a m

Nə dilərsin?

Ə b u T a h i r

(bir məktub verir)

Buyur da baq!

X a c ə N i z a m

Bu nədir?

Ə b u T a h i r

Namə.

X a c ə N i z a m

Kim yazdı?

Ə b u T a h i r

Bildiyin Sabbah.

X a c ə N i z a m

(oqur)

Əvət.

Onun məktuba daldığını görüncə Əbu Tahir xəncəri böyrünə soqar.

X a c ə N i z a m

(yıqılar)

Ah...

Ə b u T a h i r

İştə sus, gəbər...

X a c ə N i z a m

Eyvah...

Ölür. B i r i n c i q u l a m S a b b a h ilə bərabər gələr.

B i r i n c i q u l a m

(şaşqın)

Sən nə yapdın?

Ə b u T a h i r

Budur cəzası onun.

S a b b a h

(içdiyi su qədəhini bir yana bıraqaraq)

Gedəlim, haydı...

Ə b u T a h i r

Gəl, bıraq uyusun...

(Çıqarlar)

B i r i n c i q u l a m

Bu nə dəhşətli hal, aman, ya Rəb!

(*cənazəyi yoqlar*)

Sönmüş artıq, bənəm bu qətlə səbəb.

İk i n c i q u l a m

(gələr, tələşla)

Bunu kim yapdı?

B i r i n c i q u l a m

Qanlı xırsızlar,
Şimdi burdan qaçan uğursuzlar.

İk i n c i q u l a m

Bir cinayət ki, bunda sən məs'ul.

B i r i n c i q u l a m

Bən niçin? Bən niçin?

İk i n c i q u l a m

Kim etdi qəbul?

B i r i n c i q u l a m

Sus, yetər!

İk i n c i q u l a m

Ah, xəlifə görsə bunu,
Qaçırır həftələrcə uyqusunu.

B i r i n c i q u l a m

Yardım et, sonra bir səbəb buluruz,
Bir yalan uydurub da qurtuluruz.

Cənazəyi yan odaya keçirirlər. Xəyyam gələr, musiqini dinlər.

X ə y y a m

Kimsə yoq, bəklə burda.

(pərdəyi bir yana çəkər)

Eşq olsun!
Hər könül şən, nədənsə bən məhzun.
Çırpınır nəş'ə, musiqi inlər,
Oynaşır qayğısız gövərçinlər.

Qızlar havuzda hoplaşıb gülüşürlər. Xəlifə havuz kənarında qızlardan ikisini yaqalamış, öpüb sıqışdırır.

X ə l i f ə

(birinci qumral qıza)

Sən gözəlsin, sevimli afətsin.

(ikinci sarışın qıza)

Sən isə bir içim lətafətsin.

(*birincini qucaqlar)*

Səndə var coşğun ehtiras alevi,
Yaqar atəşlərin sönük bir evi.

(*qəhqəhələrlə gülən ikinci qıza*)

Səni Tanrım yaratdı gülmək için,
Sadə gülmək deyil, öpülmək için.

(*Öpər)*

X ə y y a m

(ətrafa)

Əvət, onlar birər gülümsər naz,
Sən də şəhvət əsiri bir qurnaz.

B i r i n c i q u l a m

(gəlir, qızğın)

Çəkil ordan, nə sayğı bilməz adam.

X ə y y a m

Söylənib durma, nerdə Xacə Nizam?

B i r i n c i q u l a m

Burda yoq...

X ə y y a m

Burda.

B i r i n c i q u l a m

Gəlməmiş.

X ə y y a m

Gəlmiş!

B i r i n c i q u l a m

Sana əsla yaraşmayan kötü iş.

(yaqalamaq istər)

X ə y y a m

Çəkil, azğın!

B i r i n c i q u l a m

(bağırır)

Şaşırma, haydı!

X ə l i f ə

(dönüb baqar. Xəyyama)

Bu nə?!
Sən qarışdın xilafət işlərinə...
Hər şeyin bir hüdudu var, əcəba
Sayğısızlıqda varmı bir mə'na?
Qızlar utanıb şaşırırlar.

X ə y y a m

(*acı və alaycı gülüşlə)*

Ey müqəddəs, sevimli rəhbərimiz!
Gülmək istər bizim də gözlərimiz.
Şairim, az da olsa ruhum var.

(qızları göstərir)

Bəni cəzb etdi, baq, o şaqraqlar,
Gəldim alqışlayım məharətini,
Bəyənər Tanrı görsə cənnətini.
Yıqanır Kevsərində hurilər,
İştə, ürkək baqışlarilə gülər,
Görmədim böylə şairanə həyat,
Səndə varmış pək incə hissiyyat.

(*ciddi və kəskin)*

Etməsin sözlərim fəna tə'sir,
Sən deyilsin şərəfli bir tacir.
Xalqa cənnət verib o dünyadə,
Özün aludəsin bu dünyadə.

Səni aldatmasın o göz-qaşlar,
Bu səadətdə qanlı gözyaşı var.
Bataraq bir yığın alın tərinə,
Nəş'ə sərpər sənin diləklərinə.

Qızları ağacların ardında görər.

Kimdir onlar? Zavallı qurbanlar!
Sən də bir duyğusuz, quduz canavar.

X ə l i f ə

Nə cəsarət, nədir bu azğınlıq?!
Küfrün aydın, yetər, yetər artıq.

X ə y y a m

Verin e'dam için haman fərman.

X ə l i f ə

Dur, Məlikşahə söylərim əl'an.
Səni məhv etdirir.

Ə b u Ş ü c a

(*gəlir, son sözləri dinləyərək)*

Fəqət, heyhat...

X ə l i f ə

Nə xəbər var?

Ə b u Ş ü c a

O etdi tərki-həyat...

Pərdə

ALTINCI PƏRDƏ

Nişaburda ilk baharın coşğun və gözəl günü, bağçada yeşilliklər və çiçəklər. Bir tərəfdə sarmaşıqla sarılı bir qülbə. Qülbənin önündə bir taxt qoyulmuş. Saçları, saqalı ağarmış, ağ geyimli Xəyyam taxt üzərində oturub, əllərini və alnını əsaya dayayaraq düşünür. Kənardakı yol ilə taxt arasında iki sərv ağacı və iki püsküllü söyüd vardır. Uzaqda İmamzadə günbədi və zəlzələdən xarab olmuş, bulutlara yüksələn möhtəşəm bir qəsr görünür. Ətrafı ney səsi inlətir. İki qomşu qız əllərində birər gül dəməti gəlirlər. Xəyyama yaqlaşırlar.

B i r i n c i q ı z

İştə Xəyyam uyuyur.

İk i n c i q ı z

Sus, dalmış...

B i r i n c i q ı z

İxtiyardan quru bir can qalmış.
Ya, nə olsun bu çiçəklər?

İk i n c i q ı z

Gəl də,
Bıraqıb getməli taxt üstündə.

Dəmətləri yastıq üzərinə bıraqıb səssiz adımlarla uzaqlaşırlar. Bət-bənizi solmuş, qiyafəsi dəyişmiş S a q i y ə bir qədəh şərab gətirir, taxtın yanındakı iskəmlə üzərinə bıraqaraq, çəkilib gedən qızlara tamaşa edər. Xəyyam başını qaldırır, Saqiyəni süzər.

X ə y y a m

(*mə'nalı bir ahənglə)*

Hey fələk, keçdi zaman dalğa kibi,
Öylə bir dalğa ki, qorqunc, əsəbi.
Bir əsər qalmadı şən gənclikdən,
Kimsələr yoq, nə gələn var, nə gedən...

Pozulub eyşü-tərəb, va əsəfa:
Nə Vəfa qaldı, nə Sevda, nə Səfa.
Söndülər həpsi keçən zəlzələdən,
Bir qalan biz, o küçük qafilədən.
Dəyişib soldu sənin gül yanağın,
Bən də bir atəşi sönmüş yanğın...

(uzaqdakı xərabə qəsri göstərir)

"O saraylar ki, bulutlarla öpüşməkdə bu gün,
Yüz sürərlərdi keçən şahlar onun xakinə dün,
İştə gördüm, qonaraq bürcünə bir qumru ötər,
Sanki der: hey gidi, hey! Nerdə o gün nerdə o gün?"

S a q i y ə

(qədəhi verir)

Badə iç, anmağa gəlməz keçəni.

X ə y y a m

Görünür, sözlərim incitdi səni.

S a q i y ə

Saqın, aldırma.

X ə y y a m

(içər, ətrafı heyrətlə süzər)

Təbiət nə gözəl!..
İxtiyarlıq nə uğursuz əngəl.
Nə tuhaf, yetmişə gəlmiş də yaşım,
Zevqə düşgün yenə sevdalı başım,

(ətrafa baqar, dəmətləri görər)

Bu çiçəklər nə?

S a q i y ə

(alıb qoqlayaraq Xəyyama verir)

Birər tazə dəmət.

X ə y y a m

Qomşu qızlarmı gətirmişdir?

S a q i y ə

Əvət.

Bu sırada ətrafı musiqi dalğaları oqşar, gözəl geyinmiş qızlar və dəliqanlılar taqımla yoldan keçərlər.

S a q i y ə

Nə şətarətli bahar, iştə, baqın,
Sarmış ətrafı bədii bir aqın...
Qalmamış kimsə bu gün evlərdə,
Bir sevinc aləmi var hər yerdə.

(Qədəhi alıb içəri götürür)

X ə y y a m

Yenidən parladı qarşımda həyat,
Anırım keçmişi, lakin...

(köks ötürür)

Heyhat...

Taxt yzərində uzanır, uyquya dalar. Bu sırada pək ixtiyarlaşmış M ü f t i, qiyafətini dəyişmiş N a i b l ə bərabər Imamzadə ziyarətindən gəlirlər.

M ü f t i

Ah, yoruldum.

N a i b

(yol üzərindəki iri daşı göstərir)

Bu daş üstündə otur.

M ü f t i

(otururaq)

İxtiyarlıq ölümün qomşusudur.
Bu halda ortayaşlı köylü erməni yoldan keçər.

E r m ə n i

A xocam! Burda yaşarmış bir adam.

N a i b

(sözünü kəsər)

Nə adam? Kimdir o?

E r m ə n i

Şair Xəyyam.

M ü f t i

Nə içindir bu görüş?

E r m ə n i

Nəzrim var.

M ü f t i

(şaşqın və sinirli)

Nə qadar qafil imiş insanlar.

N a i b

(ermənіyə)

O İmamzadə, bu müfti varkən
Nə umarsın o sönük bilgicdən?
Varsa nəzrin, bizə ver.

E r m ə n i

(əli ilə rədd edər)

Lafı bıraq,
Nerdə Xəyyam? Onu göstər ancaq.

M ü f t i

(sinirli)

Ona yer vermədilər Bağdadda,
Üləma küfrünə vermiş fitva.

N a i b

Kimsə əl'an bu Nişaburda belə
Ona yaqlaşmaz, inan, hörmətlə.

E r m ə n i

Nəmə lazım, a gözüm.

N a i b

Sən kimsin?

E r m ə n i

Bağçı bir erməni.

M ü f t i

(qızaraq yerindən qalqar, Naibə)

Rədd et, getsin!

N a i b

Qızma, şeyxim, o da bir əhli-kitab,
Baqalım, nəzri nədir?

E r m ə n i

(*torbadan ağzı qapalı bir dəsti göstərir)*

İştə şərab.
Ən gözəl seçmə üzümdəndir bu,
Başqadır həm dadı, həm xoş qoqusu.

M ü f t i

Sus, yetər, oh, nə ədəbsiz!..

E r m ə n i

(mə'nalı baqışla)

Əcəba,
Sən nə sandın? Kötü bir töhfəmi ya?!

N a i b

O bir atəş ki, qiyamətdə səni
Yaqaraq məhv edəcək.

E r m ə n i

(gülümsər)

Dinlə bəni!
"Bir balıq qavrulub ördəklə yanarkən tavada,

Dedi: anlat, geri dönməzmi aqan sel əcəba?
Ah çəkib söylədi ördək: biz ölürkən birdir,
Bu cihan cümlə sərab olsa, ya tufan olsa".

M ü f t i

Buna baq, bir buna baq, zəvzək adam.
Gör nələr saçmalıyor...

(*Əsası ilə şərab dəstisini qırmaq istər*)

E r m ə n i

(tələşla)

Etmə, xocam.
Bəni vursan olur, amma bunu yoq,
Ehtiram et, bu şərabın yaşı çoq.

M ü f t i

(*yenə əsasını qaldırıb bağırır)*

Haydı, söylənmə, çəkil!

N a i b

(Müftiyə)

Gəl, bəri gəl!

(Gedərlər)

E r m ə n i

(qafasını oynatar)

Gör nə qurtdur ki, qaçar ondan əcəl.

(*qülbədən çıqan Saqiyəyə)*

A bacım, nerdə o Xəyyam?

S a q i y ə

(*Xəyyamı göstərir*)

Uyuyur.

E r m ə n i

(*dəstiyi verir)*

Uyusun, al, bu onundur.

S a q i y ə

Gəl otur,
Gəl, rahatlan azacıq.

E r m ə n i

Getməliyim.

S a q i y ə

Sorsa kimdir gətirən? Bən nə deyim?

E r m ə n i

Nəyə lazım, a gözüm, söylə ki, bir
Əhli-hal ermənin töhfəsidir.

Gedər. Saqiyə dəstiyi içəri götürür. Bu sırada qaranlıq çökər, şimşəklər çaqar, rəngarəng qazlara bürünmüş rəqqasələr şən və incə gülüşlərlə Xəyyama yaqlaşıb, rəqs edib oqurlar.

R ə q q a s ə l ə r

Gəldik sana, gəldik sana, ey piri-xərabat,
Yetməzmi xəyalat?
Keçmişləri özlər düşünürsün hər adımda,
Atmaz səni Sevda.

Güldükcə təbiət, gülər azadə diləklər,
Hər kəs səni bəklər.
Sevda belə gəlmiş sana versin yeni ilham.
Ey sevgili Xəyyam!

Sevda gəlinlərə məxsus pəmbə tüllər içində olaraq gəlir.

S e v d a

Vurğun sana bir tazə gəlin, yosma gövərçin,
Sevdim səni, sevdim səni, lakin
Oqşarmı gəlin ruhunu ağ saçlı bu aşiq?
Bir xarə bu gülqönçə nə layiq.

(Gedəcək olur)

X ə y y a m

(*sayıqlarkən)*

Sevda!

B i r i n c i r ə q q a s ə

(*Sevdaya)*

O nə? Özlər səni Xəyyam,
Özlər səni, gözlər səni Xəyyam.

S e v d a

(*Xəyyama)*

Yalvarma, bənim gərdəyim, əfsus,
Pək dar və qaranlıq, bana məxsus.
Almaq dilərim qoynuma, lakin
İssız və rütubətli sənincin.

(Uzaqlaşar)

B i r i n c i r ə q q a s ə

Dur getmə, səadət quşu, bir dur,
Bas bağrına mə'şuqunu, susdur.

X ə y y a m

(*uyquda olaraq titrək və yalvarıcı bir səslə)*

Sevda?!.

S e v d a

Bəni söylətmə, çəkil git!
Bir aşiq olur sevgidə sabit.
Sən nerdə bir afətlə görüşsən,
Ruhun bayılır cilvələrindən.

(dəmətləri göstərir)

Bir söylə, niçindir bu çiçəklər?
Hər qönçəsi bir busəni bəklər.
Bir busə ki, ta qəlbimə işlər,
Hər an bəni bir oq kibi dişlər.

X ə y y a m

(*sayıqlar)*

Sevda!..

B i r i n c i r ə q q a s ə

(*alaycı gülüşlə*)

At yüzdən ipək tülləri bir an,
Olsun o gözəl gözlərə heyran.

S e v d a

(*üzündəki duvağı atar, qorqunc iskelet meydana çıqar)*

Baq! İştə bənim hüsni-camalım.

X ə y y a m

(*həzin fəryad ilə)*

Dəhşət!..

S e v d a

Səni ürkütdümü halım?
Keçmişdə, xayır, böylə deyildim.
Bilsən nə gözəl, ah nə gözəldim...
Gözlər bəni həsrətlə arardı,
Hüsnümdə səhər cilvəsi vardı.
Birdən-birə soldum da, dəyişdim,
İssız, əbədi hiçliyə keçdim.
Cismim qarışıb toprağa, ondan
Güllər və dikənlər bitər əl'an.
Yemdir dəvələrçin o dikənlər,
Güllər də köküslərdə gülümsər.

(alaycı gülüşlə)

Çirkinliyim etdirməsin ikrah

Könlüm səni öpmək dilər...

(*Yaqlaşıb Xəyyamı öpər)*

X ə y y a m

(*usanc ilə)*

Eyvah!!!

B i r i n c i r ə q q a s ə

Qısqandıq, aman busə, nə busə...

S e v d a

Baq, küsdü, inan.

R ə q q a s ə l ə r

Busə, nə busə!..

İncə qəhqəhələrlə uzaqlaşırlar. Bu sırada yağmur yağmağa başlar. Gəzintiyə çıqan qızlar geri dönüb qaçışaraq, gülüşərək ağacların altında və gülbə ətrafına toplaşarlar. Yağmur kəsildiyi kibi oynaq bir ahənglə şərqi söylərlər.

Q ı z l a r ı n ş ə r q i s i

Səhər çəməndə lalələr,
Sunardı al piyalələr.
Gülərdi incə bir günəş,
Uçardı incə jalələr.
Sular başında hər böcək
Arardı tazə bir çiçək.
Gülərdi yavru quşların
Ötüşməsilə hər dilək.

X ə y y a m

(oyanıb qalqar)

Bu nə tale, o nə rö'ya, nə xəyal?!
Onların teyfimi bunlar? Bu nə hal?!

Bir az əvvəl çiçək gətirən qızlar Xəyyama yaqlaşırlar.

B i r i n c i q ı z

(arqadaşına)

İştə, Xəyyam, o böyük şanlı baba.

İ k i n c i q ı z

Bən kimim, söylə o kimdir əcəba?

S a q i y ə

(onlara yaqlaşır)

İxtiyardır, sizi nerdən biləcək?

X ə y y a m

(*diqqətlə süzərək)*

Bir yığın canlı çiçək, şən kələbək.

(*birinciyə)*

Alagöz, bəlli, Vəfanın qızıdır.

(ikinciyə)

Bu da yoq şübhə, Səfa yıldızıdır.

B i r i n c i q ı z

Mane olduq babanın uyqusuna.

İ k i n c i q ı z

Qovdu yağmur bizi, gəldik də sana.

X ə y y a m

Pək gözəl, burda çalıb oynayınız,
Bu küçük bağçayı səhra sayınız.

Q ı z l a r

(birlikdə oqurlar)

Bulut, duman çökər həmən,
Susar o qayğısız çəmən.

Susar o şən tərənələr,
Nə bir gələn, nə bir gedən.

Bir yığın dəliqanlı keçər. Xanəndə “dəşti” oqur.

X a n ə n d ə

Könlümün başqa bir öksüzlüyü var,
Çırpınan ruhumu bir şö’lə yaqar.
Bəni oqşarkən o süzgün gözlər,
Yağdırıb göz yaşı qısqandı bahar.

Yol keçənlər arasında Saib də var. O, qiyafətini dəyişmiş, yanındakılara bağçayı göstərir.

S a i b

İştə, Xəyyam, o böyük sən’ətkar!
Sarmış ətrafını şən yıldızlar.
Kəhkəşan saçların əsrarı nihan,
Açdı irfan ilə bambaşqa cihan.
Onu duymaz, duyamaz hər şaşqın,
Bir dəniz şişəyə sığmışmı? Saqın!
Suç deyildir bu günəşçin, yarasa
Ürkərək batsa qaranlıqda yasa.
Gün dəyişdikcə o həp gənc olacaq,
Şən könüllərdə pərəstiş bulacaq.

X ə y y a m

(*əli ilə onları çağırır)*

Gəliniz, yavrularım.

B i r i n c i q ı z

(*tələşla)*

Biz gedəlim.

X ə y y a m

Bu olur şey deyil əsla, gözəlim.

B i r i n c i q ı z

Ayırır bizləri adət, qanun.

İk i n c i q ı z

Gedəlim, tez gedəlim.

B i r i n c i q ı z

Haydı!

(getmək istərlər)

X ə y y a m

Durun!

(*kəskin və coşğun)*

Uydunuz bunca xurafata, yetər!
Bu həyat iştə ölümdən də betər.
Əlverir paslı, sönük adətlər!
Şən təbiət sizi azadə dilər.
Qarışıb birləşin, iffət də budur,
Şeyxin uydurduğu cənnət də budur.

(ətrafına toplaşırlar)

Dinləyin, bir də bulunmaz Xəyyam,
İştə, bəndən gələcək nəslə pəyam;
Xilqətin şənliyi, hər rəngi sizin,
Parlayıb gurlayan ahəngi sizin,
Gömməyin hiçliyə fürsət dəmini,
Xoş görün zevqü səfa aləmini.

Dün bir əfsanə, yarındır xülya,
İki hiç... Hər biri müzlim rö'ya.
Geri dönməz bu şətarətli zaman,
Qıyaraq bir gün əcəl verməz aman.
Bir nəfəsdir bu sürəksizcə həyat,
Bir nəfəs!.. Getdimi? Gəlməz...

(əlini ürəyinin üstünə qoyaraq titrək səslə)

Heyhat!..

S a q i y ə

(yardım edib başını yastığa dayar, şaşqın)

Yenə qəlbinmi!

X ə y y a m

Tələş etmə, gülüm.

S a q i y ə

(*ətrafdakılara)*

Xastadır.

X ə y y a m

(xanəndəyə)

Sən oqu, gülsün könlüm.

X a n ə n d ə

(Əbu-əta üzrə oqur)

Beş gün ömrün necə əfsanəsi var,
Eşqi var, badəsi, peymanəsi var.
Sonu həsrətlə bitərkən, əfsus,
Yenə dünya dolu pərvanəsi var.

X ə y y a m

Ah...

(*Deyərək ansızın ölür)*

S a q i y ə

Aman...

B i r i n c i q ı z

Soldu o, birdən soldu.

S a q i y ə

Nə fəlakət!..

(Ağlar)

İk i n c i q ı z

Acı bir hal oldu.

Həzin bir musiqi başlar. Əllərdəki çiçəklər cənazə üzərinə qonulur.

S a i b

Getdi, eyvah!.. O fəzilət, o zəka!
Əbədi susdu o qüdrət, o dəha...
Söndü bir anda o sönməz atəş,
Fərqi yoq, batsa da parlaq o günəş!

Pərdə

SON

İBLİSİN İNTİQAMI

Dram – 5 pərdə

Ə Ş X A S

İ b l i s
A r i f – sülh aşiqi
R ə’ n a – onun rəfiqəsi
S i m a – sülh pərisi... Zərif bir qız...
T u n c ə r – tunc geyimli qəhrəman. (Spartak qiyafətli)
E m a – şəfqət bacısı, şən və oynaq qız... (ispaniyalı)
K a s t i l y o – Emanın nişanlısı... (ispaniyalı)
N a t e l l a – gənc, həssas qadın... (ispaniyalı)
X a l i d – mərakeşli ərəb dəliqanlısı...
G e n e r a l M i a x a – xalq komandanı... (ispaniyalı)
G e n e r a l F r a n k o – faşist komandanı... (ispaniyalı)
S o v e t n ü m a y ə n d ə s i – ...

Fransız, ingilis, italyan, yapon, alman nümayəndələri... Şeytanlar, qaraçılar, könüllü işçilər, şəfqət bacıları, yaralılar, İspaniya, Mərakeş, İtaliya, Almaniya zabitləri və əskərləri...

Dürlü qiyafətli əməkçilər, rəqs edənlər, qara geyimlilər və başqaları...

İLK PƏRDƏ

Yanda bir köşk... Qarşıda gül, yasəmən fidanları, sərv ağacları... Ortada fəvvarəli bir havuz... A r i f bir masa yanında əli alnında uyquya dalmış. Gecə aydınlığı... Coşğun muzika... Şən və oynaq parçalar çalınır. Qızıl qiyafətli ş e y t a n l a r ağaclar arasından ortaya fırlar. Arifin çevrəsində gülüşərək, itişərək, çığırışıb bağırışaraq rəqs edərlər. Bir az sonra ətrafda qorqunc gümbürtülər eşidilməyə başlar.

B i r i n c i ş e y t a n. *(şaşqın və maymunca hoplayışla*). Aman, bu nə gurultudur? Sanki yanar dağ patlıyor. Görünür İblis oyandı. Yenə hər yanı atəşlər, alavlar saracaqdır. (*Hava tutulur, göy gürlər, şimşəklər çaqar*)

İb l i s. (*atəşli qiyafətilə qarşıdakı təpəcikdən dışarı fırlar. Çılğın və qorqunc ahəng ilə*). Eyvah, alavlar içində tutuşub yandım. Yenə ərzin mərkəzində yeni tufanlar, yeni yanğınlar var. Aman durmayın! Ürəyim, beynim dəmirçi kürəsinə dönmüş. Şərab gətirin! Şərab!.. Şərab!.. Öylə şərab ki, könlümə yeni alavlar saçsın, qarşımda yeni-